## Düşmən Kəlbəcəri atəşə tutdu

Ordumuz adekvat cavab tədbirləri görüb



**Mayın 11-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Əzizli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım və Zəylik yaşayış məntəqələri istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Müdafiə Nazirliyindən verilən xəbərə görə, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.



## 14 gün əvvəl kanalda batan gəncin meyiti tapıldı

**Aprelin 27-si Bərdədə Yuxarı Qarabağ kanalında boğularaq batan gəncin meyiti tapılıb.**

Trend-in yerli bürosunun məlumatına görə, Orucov Elməddin Yusif oğlunun meyiti su kanalının Bərdə rayon Ağalı kəndindən keçən hissəsində aşkar edilərək çıxarılıb.

Meyit aidiyyatı üzrə təhvil verilib.


❒ № 82 (5604), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 may 2022-ci il (cümə)





## Ağdamda əlində sursat partlayan çoban ölüb

Prokurorluq hadisə ilə bağlı araşdırmalara başladı

**Ağdamda çoban qoyun otararkən əlində hərbi sursat partlayıb.**

Ağdamın Çəmənli kənd ərazi nümayəndəsi Rabil Quliyev Trend-in yerli bürosuna bildirib ki, partlayış nəticəsində rayon sakini, 1982-ci il təvəllüdlü Rəşad Bəxtiyarov yaralanıb.

Ağır bədən xəsarətləri alan R.Bəxtiyarov Ağdam Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Lakin onun həyatını xilas etmək mümkün olmayıb.

(səh.2)



## Səsimiz Şuşada ucalır

Mədəniyyət paytaxtında V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub

**Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Prezidentin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

(səh.2)

# Nazirlər Düşənbədə bir araya gəldi

## Sülh sazişinin imzalanması üçün ən yaxşı imkan yaranıb



**Ceyhun Bayramov:** "Biz sülh müqaviləsi üzərində işə başlamağa hazırıq"

**Dünən Tacikistanın paytaxtı Düşənbə şəhərində Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilib. Üçtərəfli görüş MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində baş tutub. Görüşdə tərəflər, bölgədə mövcud olan vəziyyət və üçtərəfli bəyanatların yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.**

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, o cümlədən dövlət sərhədinin delimitasiya prosesinin başlaması, bütün nəqliyyat və kommunikasiya xətlərinin açılışı, iki dövlət arasında sülh müqaviləsinin razılaşdırılması məsələləri üzrə fikir mübadiləsi aparılıb.

(səh.3)

## Tərəflər razılaşıb

Azərbaycan-Ermənistan delimitasiya üzrə komissiyaların görüşü Moskvada keçiriləcək



**Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası və təhlükəsizliyi ilə bağlı komissiyaların iclasının gələn həftə Moskvada keçirilməsi planlaşdırılır.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə Ermənistan XİN başçısı Ararat Mirzoyan deyib.

"Sizi məlumatlandırmaq istərdim ki, azərbaycanlı həmkarımla delimitasiya və sərhəd təhlükəsizliyi komissiyasının yaradılması mövzusunda danışmışıq. Və deyəsən, Aleksey Overçukla (Rusiya Baş nazirinin müavini) kommunikasiyalarla bağlı 16-17 mayda Moskvada görüş keçiriləcəyinə dair razılıq var. Həmçinin, Moskvada həmin günlərdə delimitasiya və sərhəd təhlükəsizliyi ilə bağlı ikitərəfli görüşün keçirilməsi təşkil olunacaq", - Mirzoyan vurğulayıb.

## Rusiyanın sifarişi əngəl ola bilməyəcək




### Ermənin generalı da, vətəndaşı da, əsgəri də reallıqla üzləşəcək

**Azərbaycanın diplomatik, siyasi, hərbi gücünü görəndən sonra erməni cəmiyyəti Qarabağdan "əlini üzüb".**

Digər tərəfdən, bu ölkədə ciddi etirazlar hökm sürür. Hamı bir-birini ittiham edir, işğalçı ölkə xaosun tam içindədir. Şübhəsiz, Koçaryan, Sarkisyan və Vanetsyan kimilərin ideyalarını daşıyanlar mürtəce mövqelərini dəyişmirlər. Amma daha erməni xalqı həqiqəti dərk etməyə başlayıb. Ermənistan Silahlı Qüvvələrinin keçmiş baş qərargah rəisi, general Movses Akopyanın Qarabağ məsələsi ilə bağlı açıqlamasını fikirlərimizin sübutu hesab edə

(səh.4)



## Paşinyanı Kremlə çağırdılar

Baş nazir mayın 16-da Moskvaya səfər edəcək

**Ermənistanın Baş naziri Nikol Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sammitində iştirak etmək məqsədi ilə mayın 16-da Rusiyanın paytaxtı Moskva şəhərinə gedəcək.**

"Report" xəbər verir ki, bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. "Mayın 16-da Moskvada KTMT-nin yaranmasının 30 illiyi ilə bağlı quruma üzv dövlətlərin Zirvə toplantısı keçiriləcək. Bu, liderlər səviyyəsində görüş olacaq. İşgüzar səhər yeməyində liderlər arasında təkbətək görüş keçiriləcək. KTMT-nin baş katibi Stanislav Zasla qurumun indiki sədri Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşün yekunlarına dair mətbuat konfransı olacaq", - o qeyd edib.

## Daha 4 nəfər koronavirusa yoluxub, ölən olmayıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 yeni yoluxma faktı qeydə alınıb, 11 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 655 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 883 nəfər müalicə olunaraq sağalıb, 9709 nəfər vəfat edib, aktiv xəstə sayı 63 nəfərdir.

## Bakıda fəhlə yeni tikilən binadan yıxılaraq ölüb



**Mayın 12-i saat 16 radələrində paytaxtın Nərimanov rayonu ərazisində 1993-cü il təvəllüdlü Orxan Bəndəliyevin hündürlükdən yıxılaraq ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Nərimanov prokurorluğundan Trend-ə bildirilib ki, ilkin araşdırmalarla müəyyən olunub ki, Nərimanov rayonunda yeni tikilməkdə olan binanın tikintisində fəhlə işləyən Orxan Bəndəliyev iş görən zaman binanın 11-ci mərtəbəsindən ehtiyatsızlıqdan 2-ci mərtəbənin damına yıxılması nəticəsində almış olduğu xəsarətlərdən hadisə yerində ölmüşdür.

Faktla bağlı Nərimanov rayon prokurorluğunda Cinayət Məcəlləsinin 222.3-cü (tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.



## Kreml geri çəkilməyəcək

Ukraynadakı məğlubiyyəti qəbul etmək Rusiyanın daxilən parçalanması ilə nəticələnə bilər

(səh.3)



## "Təklif etdim ki, partiya sədrləri dövlət tədbirlərinə dəvət edilsin"

Arzuxan Əlizadə: "Siyasi dialoq ölkədə demokratikləşməyə və yeni açılma töhfə verə biləcək davranışdır"

(səh.4)

**Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Prezidentin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar. Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başlayıb. Sonra Əməkdar artistlər İlkin Əhmədov, Babək Niftəliyev və Səbinə Ərəblinin ifasında "Qarabağ şikəstəsi"nin sədaları Şuşa dağlarına yayılıb.**






# Səsimiz Şuşada ucalır

## Mədəniyyət paytaxtında V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub





Vətən müharibəsində Azərbaycana əsl qardaşlıq dəstəyi göstərən Türkiyəni festivalda Türk Dünyası Musiqi və Xalq Rəqsləri Ansamblı təmsil edir. Ansamblın ifasında "Van yöresi" xalq rəqsi maraqla qarşılanıb.

Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu "Çal oyna" xalq mahnısını, "Cəngi" Estrada Folklor Rəqs Ansamblı "Tənzərə", Əməkdar artist Şirzad Fətəliyev və nəfəs alətləri qrupu isə "Turacı" xalq rəqslərini ifa ediblər. Malinin Şeyx Tidiane Sek etnocaz qrupu "Sanqa Bo" kompozisiyasını, "Pakistan rəngləri" qrupu "Bhanqra" rəqsini, Melitassi Gürcü Folklor Rəqs Ansamblı "Svanuri" rəqsini təqdim ediblər. Azərbaycan Dövlət Rəqs Ansamblı avar xalq rəqsini, Tunisin "Yuma" dueti "Smek" kompozisiyasını, Özbəkistanın Baxor Dövlət Rəqs Ansamblı isə "Bayot" xalq rəqsini ifa ediblər. Daha sonra Əməkdar mədəniyyət işçisi aşıq Samirə Əliyeva və aşıq Əli Tapdıqoğlu "Qarabağ qaytağısı" saz havasını, Xalq artisti Polad Bülbüloğlu və Bakı Xoreoqrafiya Akademiyasının "Xarıbülbül" rəqs ansamblı "Qarabağım" mahnısını səsləndiriblər. Açılış konserti Əməkdar artist Aybəniz Haşımovanın və "Bülbüllər" qrupunun ifasında "Vətəndən pay olmayır" mahnısı ilə başa çatıb.

Qeyd edək ki, Şuşa şəhərində ilk "Xarıbülbül" festivalı məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin (1889-1965) 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə keçirilib. Tədbir həmin ilin mayında - Şuşada xarıbülbülün çiçəklənmə dövründə düzənlənib. İlk festivalda yerli ifaçılarla yanaşı, keçmiş ittifaq respublikalarından Qırğızıstan, Qazaxıstan, Rusiya (Başqırdıstan), Litva və Belarusdan da musiqi qrupları iştirak edib. Ümumilikdə 100-ə yaxın qonağın iştirak etdiyi konsertlər Cıdır düzündə qurulmuş 7 məkanda keçirilib. Tədbirin ilk günü Qarabağ atları üzərində yarışlar və güləş yarışları ilə də yadda qalıb. Birinci festivalın tamaşaçıları əsasən Şuşa sakinləri olub. 1990-cı ildən "Xarıbülbül" festivalı beynəlxalq status alıb. İkinci festivala Hollandiya, Almaniya, İsrail və Türkiyədən də folklor qruplarının dəvət edilməsi böyük marağa səbəb olub. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar Şuşada ağır vəziyyət yarandığından əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib. Ümumilikdə ikinci festivalda müxtəlif ölkələrdən 170-ə yaxın nümayəndə iştirak edib. 1991-ci ildə keçirilən III "Xarıbülbül" festivalına 25 ölkədən 300-ə yaxın nümayəndə qatılıb. ABŞ və Avstraliyadan olan rəssamlar da festivala təşrif buyurublar. Tamaşaçıların çoxluğu səbəbindən festivalın əsas konsertləri stadionlarda keçirilib. II və III festivalların yekun konsertləri Bakıda indiki Heydər Əliyev Sarayında təşkil olunub. Dördüncü festival 1992-ci il mayın 15-də başlamalı, o zamanadək keçirilənlərin ən möhtəşəmi olmalı idi. Dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Lakin həmin ilin 8 mayında Şuşa şəhəri Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildiyindən "Xarıbülbül" festivalını burada təşkil etmək mümkün olmayıb. Festival yalnız qısa müddətdə Ağdam şəhərində, İmarət kompleksində keçirilib. Şuşada "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı mədəniyyət paytaxtımızın 28 il sürən işğaldan azad edilməsindən sonra bərpa olundu. Azərbaycanın mədəniyyət paytaxtı 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşıladı. 2021-ci il mayın 12-13-də Şuşanın Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən sayca IV festivalın ilk günündə milli rəqs, muğam sənəti təqdim olunub. Azərbaycanın müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirilib, müxtəlif illərdə Şuşada lentə alınmış Azərbaycan xanəndələrinin ifalarından ibarət videoçarxlar nümayiş etdirilib. Festivalın ikinci günündə Azərbaycan bəstəkarlarının klassik musiqi əsərləri təqdim olunub. Konsertdə Azərbaycan Dövlət Simfonik Orkestrinin və Azərbaycan Dövlət Xoru, həmçinin tanınmış vokal ifaçıları və digər solistlər çıxış ediblər.









**İsmayıl**

# Paşinyan səmimiyyətdən uzaq olduğunu göstərir

## XİN Ermənistan Baş nazirinin ittihamlarına cavab verib

**"Ermənistan Baş nazirinin Niderlandın Klingendayl Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar, o cümlədən humanitar məsələlərlə bağlı həqiqətdən uzaq ittihamlar, Ermənistan rəhbərliyinin iki dövlət arasında münasibətlərin normallaşması məsələsində səmimiyyətdən uzaq olduğunu göstərir".**



Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Baş naziri N.Paşinyanın Niderlandın Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı səsləndirdiyi fikirləri şərh edərkən deyib.

Birinci növbədə, xatırladırıq ki, Azərbaycan öz ərazilərini işğaldan azad edib bu ərazilərdəki mina problemini, o cümlədən həm 30 ilə yaxın davam edən işğal müddətində sistematik şəkildə, həm də üçtərəfli bəyanat imzalandıqdan sonra əraziləri tərk edərkən Ermənistan tərəfinin məqsədyönlü şəkildə minaları basdırdığını, minaların bölgədə insan həyatına ciddi təhdid doğurduğunu və beləliklə də mina xəritələrinin Azərbaycana təqdim edilməsi üçün Ermənistana təzyiq edilməsi məsələsini dünya ictimaiyyətinin diqqətinə çatdırdığı zaman, əvvəlcə Ermənistan tərəfi ümumiyyətlə, mina xəritələrinin mövcudluğunu inkar edirdi. Daha sonra isə beynəlxalq ictimaiyyətin bu məsələdə mövqeyi ilə üzləşən Ermənistan mina xəritələrini hissə-hissə Azərbaycana təqdim etdi və verilən xəritələrin dəqiqliyi isə 25% təşkil edib. Ümumiyyətlə, Ermənistan tərəfindən mina xəritələrinin təqdim edilməsini humanitar jest kimi qələmə vermək yanlışdır, çünki bu, üçtərəfli bəyanatın imzalanmasından sonra Ermənistanın beynəlxalq humanitar hüquq öhdəliyi idi.

Üçtərəfli bəyanat imzalandıqdan bu günədək əksəriyyəti mülki şəxs olmaqla, 219 nəfər mina qurbanı olub. Əfsuslar olsun ki, vətəndaşlarımız mütəmadi olaraq, o cümlədən Ermənistan tərəfinin xəritələri təqdim etməsindən, habelə iki dövlət liderinin Brüssel görüşündən sonra da mina qurbanına çevrilirlər. Bu ilin yalnız aprel ayında baş vermiş 9 hadisə nəticəsində 10 nəfər minalardan xəsarər alıb.

30 ilə yaxın Ermənistan tərəfindən darmadağın edilən əraziləri hazırda Azərbaycan yenidən qurur, bərpa edir. Onilliklər ərzində torpaqlarından didərgin düşən insanların evlərinə geri qayıtmasını təmin etmək üçün gecə-gündüz iş görülür. Lakin bu ərazilərdəki geniş miqyaslı mina problemi köçkünlərin öz evlərinə tez qayıtmasına ciddi təhdid doğurur. Bunun yeganə səbəbkarı isə Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçı siyasət və dağıdıcı, pozucu fəaliyyətdir.

Belə olduğu halda, Ermənistan Baş nazirinin Azərbaycanı humanitar addımlar atmamaqda, saxlanılan erməni əsilli şəxsləri qaytarmamaqda ittiham etməsi yersiz və əsassızdır. Ermənistan rəhbəri yaxşı olardı ki, öncə Azərbaycan ərazilərinə qanunsuz şəkildə daxil olan erməni əsilli diversantların Azərbaycanda saxlanma səbəbini anlasın.

Sözsüz ki, humanitar məsələlər sülh gündəliyinin önəmli tərkib hissəsini təşkil edir və məhz buna səbəbdən Azərbaycan hər zaman humanizm prinsiplərini öz fəaliyyətində rəhbər tutub, hətta 44 günlük müharibə zamanı və müharibə sonrası birtərəfli qaydada humanitar addımlar atıb. Lakin, Ermənistan tərəfi nəhayət başa düşməlidir ki, sülh üçün sadəcə danışmaq yox, hərəkət etmək lazımdır.

Lakin, Ermənistan Baş nazirinin Azərbaycana qarşı hələ də əsassız iddialarla çıxış etməsi, bu ölkənin sülh üçün hərəkətə keçmək istəyini ciddi sual altına alır.



# MEDİA-nın "ADA" Universiteti ilə birgə təşkil etdiyi silsilə seminarlar başa çatıb

**11 may tarixində Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin birgə imzaladığı əməkdaşlıq memorandumu çərçivəsində dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün təşkil edilən "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda silsilə seminarların bağlanış mərasimi keçirilib. Seminarları uğurla bitirən 40 iştirakçıya sertifikatlar təqdim edilib.**

Trend xəbər verir ki, iki həftə davam edən silsilə seminarlarda yerli və xarici mu?təxəssislər tərəfindən media ilə əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənilməsi, ənənəvi və sosial media ilə işə proaktiv yanaşaraq daha keyfiyyətli ictimai məzmunun yaradılması mövzularında çıxışlar, interaktiv mu?zakirə sessiyaları təşkil olunub.

Seminarların bağlanış mərasimində iştirakçılar təəsüratlarını bölüşərək əldə etdikləri biliklərin gələcək fəaliyyətlərinə faydalı olacağını bildiriblər.

Qeyd olunan seminarlar ötən il ərzində dövlət qurumlarının media subyektləri ilə əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı kommunikasiya əlaqələrinin təkmilləşdirilməsi, eləcə də müasir media mühitində ictimaiyyəti məlumatlandırma mexanizmlərinin daha səmərəli qurulması məqsədilə mətbuat katibləri üçün ADA Universiteti ilə birgə təşkil edilən silsilə seminar və təlimlərdən əldə edilən uğurlu təcrübəyə əsaslanaraq həyata keçirilib.

# Ağdamda əlində sursat partlayan çoban ölüb

## Prokurorluq hadisə ilə bağlı araşdırmalara başladı



**Ağdamda çoban qoyun otararkən əlində hərbi sursat partlayıb.**

Ağdamın Çəmənli kənd ərazi nümayəndəsi Rabil Quliyev Trend-in yerli bürosuna bildirib ki, partlayış nəticəsində rayon sakini, 1982-ci il təvəllüdlü Rəşad Bəxtiyarov yaralanıb.

Ağır bədən xəsarətləri alan R.Bəxtiyarov Ağdam Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Lakin onun həyatını xilas etmək mümkün olmayıb.

Ağdam prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla kənd-təsərrüfatı fəaliyyəti ilə məşğul olan Rəşad Bəxtiyarovun rayonun Çəmənli kəndi ərazisində silah-sursatın partlaması nəticəsində aldığı xəsarətlərdən ölməsi müəyyən edilib. Hazırda faktla bağlı Ağdam rayon prokurorluğunda araşdırma aparılır.

# Dənizin səviyyəsi öyrəniləcək

## Rusiya və Azərbaycan alimləri Xəzəri tədqiq edəcəklər



**Rusiya və Azərbaycanın elmi təsisatları Xəzər regionunda tədqiqatlar sahəsində əməkdaşlığı gücləndirəcək.**

Trend bildirir ki, müvafiq saziş mayın 11-də Moskvada "Xəzər dialoqu" Beynəlxalq Assambleyası çərçivəsində imzalanıb.

Saziş Rusiya, Azərbaycan və Xəzər regionunun digər ölkələrində yerləşən təşkilatlar arasında elmi, texnoloji, innovasiya və təhsil sahələrində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində qarşılıqlı fəaliyyəti nəzərdə tutur.

Bura, həmçinin birgə tədqiqatlar, Xəzər dənizinin səviyyəsinin öyrənilməsi, Rusiya və Azərbaycanın sularında ekoloji monitorinq məsələləri daxildir.

Sazişin həyata keçirilməsi üçün məsləhətləşmələrin aparılması, eləcə də ekspert qruplarının yaradılması, elmi-texniki əməkdaşlıq məsələlərinə həsr olunmuş informasiya və analitik materialların buraxılması, internet resurslarının və çap nəşrlərinin inkişafı nəzərdə tutulur.

# Tahir Əmiraslanov vəzifəsindən azad edilib

## Onun yerinə Orxan Fikrətoğlu təyin olunub





**Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov vəzifəsindən azad edilib.**

APA xəbər verir ki, bu vəzifəyə tanınmış teleaparıcı Orxan Fikrətoğlu təyin edilib.

Dövlət Turizm Agentliyi faktı APA-ya təsdiq edib. Agentlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, ötən aydan Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru vəzifəsinə Orxan Fikrət oğlu Sadıqov təyin olunub.

# Nazirlər Düşənbədə bir araya gəldi

Sülh sazişinin imzalanması üçün ən yaxşı imkan yaranıb



## Ceyhun Bayramov: “Biz sülh müqaviləsi üzərində işə başlamağa hazırıq”

İsmayıl Qocayev

**Dünən Tacikistanın paytaxtı Düşənbə şəhərində Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilib. Üçtərəfli görüş MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində baş tutub. Görüşdə tərəflər, bölgədə mövcud olan vəziyyət və üçtərəfli bəyanatların yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.**

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, o cümlədən dövlət sərhədinin delimitasiya prosesinin başlaması, bütün nəqliyyat və kommunikasiya xətlərinin açılışı, iki dövlət arasında sülh müqaviləsinin razılaşdırılması məsələləri üzrə fikir mübadiləsi aparılıb. Tərəflər, bölgədə sülh və təhlükəsizliyin təmin olunması naminə əldə edilmiş razılaşmaların icrasının vacibliyi vurğulanıb.

**“Nəqliyyat-kommunikasiya xətlərinin açılması işində irəliləyiş yoxdur”**

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib ki, Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşü əldə edilə biləcək irəliləyişləri müzakirə etmək üçün yaxşı fürsətdir:** ”Biz sülh müqaviləsi üzərində işə başlamağa hazırıq. İnanırıq ki, bugünkü görüş, təmasların davam etdirilməsi bu mövzuda müzakirələrin davam etdirilməsinə müsbət təsir göstərəcək”. XİN başçısı eyni zamanda nəqliyyat-kommunikasiya xətlərinin açılması işində irəliləyişin olmadığını vurğulayıb.

Qeyd edək ki, Düşənbədə MDB Xarici İşlər Nazirləri Şurasının toplantısı çərçivəsində Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov əvvəlcə rusiyalı həmkarı Sergey Lavrovla ikitərəfli görüş keçirib. Daha sonra Azərbaycan, Rusiya və Ermənistan XİN başçılarının üçtərəfli görüşü başlayıb. Ceyhun Bayramov Lavrovla Ermənistanla normallaşma prosesini müzakirə edib. Nazirlər, iki ölkə arasında münasibətlərin müxtəlif istiqamətlər üzrə inkişafı məsələlərini müzakirə ediblər. Bölgədəki cari vəziyyət ətrafında fikir mübadiləsi aparan tərəflər, sülh və təhlükəsizliyin təmin olunması üçün imzalanmış üçtərəfli bəyanatların tam icrasının vacibliyini bir daha vurğulayıblar. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində addımların atılmasının əhəmiyyəti qeyd edilib. Tərəflər, həmçinin regional və beynəlxalq təhlükəsizlik gündəliyinə daxil olan məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**“Rusiya-Azərbaycan münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlib”**

**Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib ki, vəziyyətə ümumi baxış keçirmək, prezidentlərin qoyduğu konkret tapşırıqların necə yerinə yetirildiyinə baxmaq üçün istənilən məkan çox dəyərlidir.** Lavrov Ceyhun Bayramovla görüşünün iki ölkənin münasibətlərinin keyfiyyətcə yeni mərhələyə - müttəfiqlik səviyyəsinə çatdığı zamanda keçirildiyini deyib: ”Qeyd etmək istərdim ki, bu il diplomatik münasibətlərin 30 illiyini qeyd edirik. Yaxın vaxtlarda bir çox parlaq tədbirlərin keçirilməsi, Rusiya-Azərbaycan sənədlər toplusunun çapa hazırlanması gözlənilir”.

**“Moskva Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasında maraqlıdır”**

**Lavrov bildirib ki, Rusiya Cənubi Qafqazın sülh, davamlı inkişaf və firavanlıq zonasına çevrilməsində maraqlıdır:** ”Ümid edirəm ki, bugünkü görüş liderlərimizin müəyyən etdiyi yolla irəliləməyə imkan verəcək”. Rusiya XİN başçısı vurğulayıb ki, Moskva tərəflər arasında etimadın artırılmasında və Ermənistan-Azərbaycan əlaqələrinin tam normallaşması üçün şərait yaradılmasında maraqlıdır.

**“XİN rəhbərlərinin növbəti görüşü Moskvada olacaq”**

**Ermənistan XİN başçısı Ararat Mirzoyan deyib ki, Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası və təhlükəsizliyi ilə bağlı komissiyaların iclasının gələn həftə Moskvada keçirilməsi planlaşdırılır.** Onun sözlərinə görə, Azərbaycan-Ermənistan delimitasiya üzrə komissiyaların görüşü Moskvada keçiriləcək: ”Azərbaycanlı həmkarımla delimitasiya və sərhəd təhlükəsizliyi komissiyasının yaradılması mövzusunda danışmışıq. Deyəsən, Aleksey Overçukla (Rusiya Baş nazirinin müavini) kommunikasiyalarla bağlı 16-17 mayda Moskvada görüş keçiriləcəyinə dair razılıq var. Həmçinin, Moskvada həmin günlərdə delimitasiya və sərhəd təhlükəsizliyi ilə bağlı ikitərəfli görüşün keçirilməsi təşkil olunacaq”.




# MEDİA "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb

**Medianın İnkişafı Agentliyi ”Sərhədsiz Reportyorlar” təşkilatına məktub ünvanlayıb.**

Agentlikdən ”Şərq”ə verilən məlumata görə, məktubda Təşkilatın ”2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi”nə münasibət bildirilərək, demokratik cəmiyyətin mühüm komponentlərindən biri olan media və ifadə azadlığının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklərə uyğun olaraq tam təmin edildiyi, medianın inkişafının dövlətin prioritet fəaliyyət istiqaməti olduğu vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı əsasında Medianın İnkişafı Agentliyinin yaradılması, media islahatlarının dərinləşdirilməsi, özəl sektoru media ilə əməkdaşlığa cəlb edən böyük layihələrin reallaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi qeyd edilərək, müvafiq beynəlxalq reytinqlər tərtib edilərkən bu müsbət təşəbbüslərin nəzərə alınmamasından təəssüf hissi keçirildiyi bildirilib.

Bildirilib ki, 2021-ci ildə ”Sərhədsiz Reportyorlar” Təşkilatının rəsmi veb-saytında xidməti vəzifələrini yerinə yetirərkən ermənilərin Kəlbəcər rayonuna basdırdıqları minaya düşərək həlak olan jurnalistlərlə bağlı məlumatın təhrif edilərək təqdim edilməsi, faciənin əsl səbəbi və mahiyyətinin açıqlanmaması, həmin məlumatın qərəzli olaraq Azərbaycanın əleyhinə istifadə edilməsinə imkan yaradıb və əsassız yanaşmaların formalaşması ilə nəticələnib.

”2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi” ilə əlaqədar Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya şöbəsinin rəhbəri xanım Janna Kavelyenin ”Amerikanın Səsi” beynəlxalq multimedia xəbər təşkilatına müsahibəsində səsləndirdiyi fikirlər, o cümlədən Azərbaycanın yeni reytinqini əsaslandırmaq üçün irəli sürülən arqumentlər özlüyündə tutarlı əsaslara söykənmir və müvafiq İndeks Azərbaycanda media azadlığının vəziyyəti ilə bağlı obyektiv reallığı əks etdirmir.

Məktubda ”Media haqqında” Qanunun müvafiq maddələri bir daha izah edilir, Azərbaycanda jurnalist fəaliyyətinə görə heç kimin həbs edilmədiyi vurğulanır və istənilən sahədə inkişafın qarşılıqlı hörmətə, konstruktiv əməkdaşlığa, bütün tərəflərin obyektiv, qərəzsiz yanaşmasına əsaslanmalı olduğu bildirilir: ”İnanırıq ki, bir neçə mənbədən, o cümlədən bizim mənbələrdən istifadə edilməsi ”Sərhədsiz Reportyorlar” Təşkilatının təqdim etdiyi xəbərlərin və hesabatların dəqiqliyini, obyektivliyini və etibarlılığını artıracaq, ixtilafa yol açan halları aradan qaldıracaqdır”.

Məktubun sonunda bir daha qeyd edilir ki, Medianın İnkişafı Agentliyi ”Sərhədsiz Reportyorlar” Təşkilatı, eləcə də media sahəsində fəaliyyət göstərən digər təşkilatlarla dialoqa hazırdır.

# Kreml geri çəkilməyəcək

Ukraynadakı məğlubiyyəti qəbul etmək Rusiyanın daxilən parçalanması ilə nəticələnə bilər

Aygün Tahir



**ABŞ Senatının Silahlı Qüvvələr Komitəsində keçirilən ”Dünya miqyasında təhdidlər” iclasına qatılan ABŞ Kəşfiyyat Birliyinin bir nömrəli şəxsi Avril Haynes 24 fevraldan bəri davam edən Ukrayna müharibəsi ilə bağlı açıqlama verib.**

ABŞ-ın Milli Kəşfiyyat (DNI) direktoru Avril Haynes bəyan edib ki, Rusiya Prezidenti Vladimir Putin Ukraynada ”uzunmüddətli müharibəyə” hazırlaşır.

Putinin Ukraynada nə etmək istədiyi ilə bağlı sualı cavablandıran Haynes ”Ruslar orada (Donbassda) uğur qazansalar belə, bu vəziyyət müharibəni bitirməyəcək. Prezident Putinin Ukraynada öz məqsədlərinə çatmaq üçün Donbassda qazansalar belə uzunmüddətli müharibəyə hazırlaşdığını hesab edirik” deyib.

Rusiyanın ilkin hərbi məqsədlərinə çata bilmədiyini ifadə edən Haynes diqqətini paytaxt Kiyevdən Donbass bölgəsinə çevirdiyini vurğulayıb. O bildirib ki, qarşıdakı 1-2 ay çox həlledici olacaq, ruslar hərbi səylərini Donbass bölgəsində artıracaq. Putinin strateji hədəfləri yəqin dəyişməyib.

Avril Haynes Putinin yalnız Rusiya dövləti üçün ekzistensial təhlükə hiss etdiyi halda nüvə silahına müraciət edə biləcəyini hesab etdiklərini, lakin yenə də ehtiyatlı və diqqətli davrandıqlarını diqqətə çatdırıb.

Bu arada Ukrayna hakimiyyəti də Rusiyanın ölkənin şərqində hücumlarını davam etdirdiyini bildirib.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan siyasi şərhçi Turab Rzayevin fikirlərinə görə, Ukraynadakı məğlubiyyəti qəbul etmək Rusiyanın daxilən parçalanması ilə nəticələnə bilər:**

”Rusiya dayansa belə, Ukrayna Donbass uğrunda mübarizə aparacaq. Belə olan halda rusların sona qədər döyüşməyəcəyi də bəlli deyil. Ona görə, rəsmi Moskva geri çəkilə bilməz, cəbhəni genişləndirməyə məcburdur.

Müharibəni genişləndirsə, Moldovaya və digər ölkələrə hücumu mümkündür. Rusiya da münaqişədə ciddiliyini göstərmək üçün taktiki nüvə silahından istifadəyə əl atar. Moldovanın, Azərbaycanın, Qafqaz ölkələrinin adının çəkilməsi heç də xoş deyil. Rusiya Azərbaycan-Türkiyə strateji müttəfiqliyini, Qarabağdakı nəticələri nəzərə alıb ölkəmizə hücuma cəhd göstərməz. Moldova ilə plan real görünür”.

Politoloq bildirib ki, Dnestryanında hərəkətlənmə var. Rusiya Qara dənizin şimal zolağını, Krımdan sonra Odessa, ardınca Moldovanı ələ keçirməyə çalışacaq:

”Ancaq Moldovoya hücum Rumıniya ilə toqquşma deməkdir. Onlar eyni millətdir, qorunma ilə bağlı müqavilələri mövcuddur. Rumıniya NATO üzvüdür. Rumıniya ilə toqquşma NATO ölkələrinin münaqişəyə girməsinə yol açar. Azərbaycana hücum isə Türkiyənin reaksiyası ilə nəticələnər.

Ümid edirəm ki, Rusiya xam xəyallarından əl çəkib, bütün fikrini Ukraynaya doğru cəmləyəcək”.

# Rusiya Qarabağda müxtəlif senarilər düşünür

Azərbaycanın Rus İcması səsini çıxarmalıdır



**Rusiya Qarabağda ”rus icması” kartını yenidən aktuallaşdırır. İlin əvvəlində ”Vahid Rusiya” partiyasının üzvü, ”rus icması” layihəsində aparıcı fiqur rolunu oynayan Vitali Milanovun Qarabağa qanunsuz səfəri ilə rəsmi Bakının Moskvaya etiraz məktubundan sonra proses arxa plana keçmiş kimi görünürdü.**

Lakin qondarma ”rus icması”nın ”rəhbəri” Aleksandr Bordovun baş separatçı Araik Arutyunyanla görüşü təhlükəli senarinin davam etdiyini göstərir. Ekspertlərə görə, qondarma ”rus icması” layihəsində separatçıların və Moskvanın öz planları var. Separatçılar ”rus icması” və ”rus dili” üzərindən gələcək mövcudluqlarını Moskvanın təminatı altına alınmasına çalışır. Terrorçu Araikin ”Rusiya Mədəniyyət Evləri”nin açılması istiqamətində işlərin getdiyi haqda açıqlaması da buna hesablanıb.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, Rusiya Qarabağda mövcudluğunu davam etdirməyin müxtəlif senarilərini düşünür. Xüsusilə ermənilərlə yanaşı, ”rusları qorumaq” əsasları da hazırlanır. Ekspertə görə, bu, mümkün sülh sazişindən sonrakı dövrə hazırlıqdır:** ”Rusiya Brüssel razılaşmasının praktiki mərhələdə işləməsinə qarşı addımlar atmaqla özünün ”hakim vasitəçiliyini” qorumağa çalışsa da, bölgənin gələcəyi üçün sülh sazişinin qaçılmaz olduğunu da anlayır. Rus masasında imzalanan üçtərəfli razılaşmaların işləməsi baxımından da bu, baş tutmalıdır. Onu da anlayır ki, Qarabağa ”status”un verilməsi faktiki sıradan çıxıb. Bundan sonra bölgədə ”erməni icması” və ”Azərbaycan icması” arasında münasibətlərin qurulması adı ilə daha uzun müddətə qalmaq perspektivi mümkün ola bilər. Bura ”rus icması”nın da əlavə edilməsi Moskvanın planını gücləndirəcək amildir. Rəsmi Bakı Moskvaya Azərbaycan ərazisində ikinci ”rus icması”na ehtiyacın olmadığını izah etməlidir. Bu prosesdə Azərbaycanın Rus İcmasının üzərinə də böyük iş düşür. İcma Bordovu ”qara siyahı”ya salmalı, onlardan olmadığını elan etməlidir. Qarabağdakı rus əsilli olanlarla işləməlidir. Rusiya rəhbərliyinə Azərbaycan ərazisinə ikinci icmanın yaradılmasını qəbul etmədikləri haqda müraciət ünvanlamalıdır. İkinci icmanın yaradılmasının əsas icma ilə münasibətlərdə problemə yol açdığını anlatmalıdırlar. Azərbaycanın Rus İcması Qarabağda qondarma ”rus icması” layihəsi dövriyyəyə salınandan indiyə qədər hələ də heç bir reaksiya verməyib”.

**İsmayıl Qocayev**



# Ukraynanın işğalı yeni reallıqlar yaradıb

Finlandiya NATO-ya üzv qəbul edilsə, bu amilin özü Kremlin regional siyasətinin növbəti məğlubiyyəti olacaq

**Finlandiya NATO-ya üzv olacağını rəsmən elan edib. Finlandiya tərəfsiz Skandinaviya ölkəsiydi. Ancaq Rusiyanın Ukraynaya hücumu ilə ciddi hazırlıq vəziyyətinə keçib.**

Rusiya isə bu iki ölkəyə NATO-ya qoşulmaması barədə xəbərdarlıq edib və ölkəni texniki hərbi cavabla hədələyib. Rusiya hərbi alyansı bir müdafiə ittifaqı olaraq görmür. Tam əksinə, onun fikrincə, təşkilat Rusiyanın təhlükəsizliyinə təhdid təşkil edir. Ekspertlərə görə, Finlandiya NATO üzvlüyü üçün tələb olunan kriteriyalardan birini, demokratik sistemə sahib olmaq şərtini ödəyir. ABŞ quru qoşunlarının Avropa bölməsinə rəhbərlik etmiş, təqaüddə olan general-leytenant Ben Hodges Finlandiyanın quruma qoşulmasının müsbət olacağı fikrindədir: ”Bu ölkə hərbi vəziyyətdən çox yaxşı vəziyyətdədir. Bacarıqlı və müasir orduları var, səfərbərlik sistemi çox yüksək səviyyədədir”. Finlandiyada aparılan bir araşdırmanın nəticələrinə görə, ölkənin 62 faizi bu hərbi birliyə qoşulmağın tərəfdarıdır. Coğrafi olaraq, Finlandiyanın mövqeyi NATO-nun müdafiə sahəsində çox əhəmiyyətli bir boşluğu doldurur və Rusiya ilə ittifaqın sərhəddini iki dəfə artırır. Finlandiya Prezidenti Sauli Niinistö də vurğulayıb ki, NATO-ya üzvlük heç kimə qarşı yönəlməyib. Prezident ölkəsinin təhlükəsizlik təminatının hakimiyyətin ən vacib hədəfi olduğunu, bu istiqamətdə vaxtında və müvafiq addımlar atıldığını deyib. O, NATO-ya üzvlüklə bağlı hökumətin rəsmi təsdiqinin vaxtında və məntiqli şəkildə düşünülərək verilən qərar olduğunu deyib: ”NATO-ya üzvlüklə Finlandiya öz təhlükəsizliyini maksimum dərəcədə gücləndirir. Bu, heç kimə qarşı deyil. Alyansın üzvü kimi Finlandiya təbii olaraq bütün cəmiyyətin təhlükəsizliyinə töhfə verəcək”. O diqqətə çatdırıb ki, Rusiya Finlandiyanın sərhəd qonşusudur və belə olaraq da qalacaq. Prezident əlavə edib ki, NATO-ya üzvlüklə Skandinaviya regionunda əlaqələr daha da yaxınlaşır: ”Rifah, demokratiya və insan haqları ilə yanaşı, Skandinaviya modeli ”təhlükəsizlik” məfhumu ilə daha da tanınacaq”. O, bunun tarixi qərar olduğunu vurğulayıb. NATO Baş katibi Yens Stoltenberq də bildirib ki, Finlandiyanın NATO-ya üzvlüyü hamar və sürətli olacaq. Onun sözlərinə görə, Finlandiyanın təşkilata üzvlüyü həm alyansı, həm də Finlandiyanı gücləndirəcək. Baş katib əlavə edib ki, yetkin demokratiyaya malik Finlandiya NATO-nun ən yaxın tərəfdaşlarından biridir, Avropa İttifaqının (Aİ) üzvüdür və Avro-Atlantik təhlükəsizliyə mühüm töhfə verən bir ölkədir.

**Politoloq Elxan Şahinoğlu bildirib ki, uzun onilliklər neytral siyasətə üstünlük verən Finlandiya Ukraynadakı işğalçı müharibə fonunda NATO-ya üzv qəbul edilsə, bu amilin özü Kremlin regional siyasətinin növbəti məğlubiyyəti olacaq:** ”Çünki Finlandiya və İsveç keçmişdə SSRİ, sonrakı illərdə isə Rusiya ilə münasibətləri gərginləşdirməmək üçün NATO-ya üzv olmurdular. Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi yeni reallıqlar yaradıb. Rusiya ilə əməkdaşlıqdan uzaqlaşmaq və bu dövlətdən özünü qorumaq istəyənlərin sayı artıb”.

**İsmayıl**

# "Təklif etdim ki, partiya sədrləri dövlət tədbirlərinə dəvət edilsin"

## Arzuxan Əlizadə: "Siyasi dialoq ölkədə demokratikləşməyə və yeni açılıma töhfə verə biləcək davranışdır"

İsmayıl Qocayev



**Siyasi dialoq prosesləri çərçivəsində Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyevin siyasi partiya sədrləri ilə görüşləri 2 ildir davamlı şəkildə təşkil olunur. Növbəti görüş ötən gün Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə ilə keçirilib. Görüşdə şöbə müdiri Ədalət Vəliyev dünyada cərəyan edən geosiyasi proseslərin ölkədə siyasi həmrəylik mühitinin qorunmasını şərtləndirdiyini xüsusi vurğulayıb.**

Qeyd olunub ki, bilavasitə milli maraqlara cavab verən məsələlərdə siyasi partiyalarla əməkdaşlıq ölkədə reallaşan siyasi dialoqun prioritet istiqamətlərindən biridir. Bəyan edilib ki, Azərbaycana qarşı aparılan informasiya təxribatları ilə mübarizədə siyasi partiyaların bütün potensialları səfərbər olunmalıdır. 1992-ci ildə yaradılmış Azərbaycan Milli İstiqlal Partiyasının geniş beynəlxalq əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edən şöbə müdiri bildirib ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mövcud əlaqələrdən səmərəli şəkildə istifadə olunmalıdır. Görüşdə digər məsələlərlə yanaşı, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbədən sonra regionda yaradılmış yeni reallıq mövzusu da geniş müzakirə olunub. Vurğulanıb ki, dayanıqlı inkişaf naminə iqtidar-müxalifət münasibətlərinin məhz konstruktiv əməkdaşlıq formatında inkişaf olunması üçün qarşılıqlı səylər artırılmalıdır.

**Görüşlə bağlı "Şərq"ə danışan Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşmasını yüksək qiymətləndirib. Partiya sədri bu prosesin demokratik dəyərlərin möhkəmləndirilməsi, siyasi mədəniyyətin yüksəlməsinə xüsusi dəstək olduğunu bildirib. O, ölkədə bütün siyasi qüvvələrin ümummilli məsələlərdə, dövlətçiliyin möhkəmlənməsində bir güc kimi olmasının vacibliyini qeyd edib:** "2019-cu ilədək Prezident Administrasiyasındakı siyasətlə bağlı müvafiq şöbə demək olar ki, partiyalarla işləməyib. Amma Ədalət Vəliyevin rəhbərlik etdiyi şöbə yaradıldıqdan sonra partiyalarla təmaslar quruldu. Belə görüşləri vacib sayır və davamlı olmasına pozitiv yanaşırıq. Çünki son dönəmlər cəmiyyətdə belə bir fikir formalaşırdı ki, siyasi partiyalarla görüşlər davamlı keçirilmir. Ancaq göründüyü kimi siyasi partiyalarla mütəmadi görüşlər təşkil olunur. Hazırda fərqli dövr yaşayırıq. Hər zaman bəyan etmişik ki, ölkə daxilindəki problemləri həll etmək üçün masa arxasına oturmaq, ortaq müzakirələr aparmaq lazımdır. Hakimiyyətlə siyasi cameə arasında dialoq mühiti qurulmalı və inkişaf etdirilməlidir. Bununla bağlı təkliflərimiz də olub. Ötən gün baş tutan növbəti görüş zamanı da təkliflərimizi dilə gətirmişik. Nəzərə çatdırım ki, keçən müddət ərzində təkliflərimiz arasında qəbul edilənlər olub. Bunu xüsusi olaraq vurğulamaq lazımdır. Təbii ki, həllini gözləyən məsələlər də var. Qərara alındı ki, təmaslar daha intensiv olsun. Həmçinin, bildirildi ki, müxtəlif məsələlərlə bağlı siyasi partiyalar öz təkliflərini irəli sürsünlər".

**A.Əlizadə vurğulayıb ki, siyasi partiyaların ictimai nəzarət funksiyasına cəlb olunmasını təklif edib:** "Vurğuladım ki, mərkəzi və yerli icra hakimiyyətləri orqanlarının yanında fəaliyyət göstərən İctimai Şuralarda siyasi partiyaların da yer alması çox faydalı olar. Dövlət başçısı Azərbaycanda fəaliyyət göstərən siyasi partiya sədrlərini hər bayramda təbrik edir. Bu da yeni ənənədir. Görüşdə təklif etdim ki, siyasi partiya rəhbərlikləri dövlət tədbirlərinə dəvət edilsin və bu məsələ protokola salınsın. Artan dinamika ilə gedən münasibətlər ümumi işimizin xeyrinədir. Ölkədə demokratikləşməyə və yeni açılıma töhfə verə biləcək davranışdır. Davamlı olacaqsa, dövlətimizin daha da demokratikləşməsinə, siyasi münasibətlərin inkişafına və şəffaf idarəetməyə mühüm təkan və dəstək verəcək".




# Rusiyanın sifarişi əngəl ola bilməyəcək

## Ermənin generalı da, vətəndaşı da, əsgəri də reallıqla üzləşəcək

Aygün Tahir

**Azərbaycanın diplomatik, siyasi, hərbi gücünü görəndən sonra erməni cəmiyyəti Qarabağdan "əlini üzüb".**

Digər tərəfdən, bu ölkədə ciddi etirazlar hökm sürür. Hamı bir-birini ittiham edir, işğalçı ölkə xaosun tam içindədir. Şübhəsiz, Koçaryan, Sarkisyan və Vanetsyan kimilərin ideyalarını daşıyanlar mürtəce mövqelərini dəyişmirlər. Amma daha erməni xalqı həqiqəti dərk etməyə başlayıb. Ermənistan Silahlı Qüvvələrinin keçmiş baş qərargah rəisi, general Movses Akopyanın Qarabağ məsələsi ilə bağlı açıqlamasını fikirlərimizin sübutu hesab edə bilərik. O qeyd edib ki, Qarabağla bağlı Ermənistan tərəfindən artıq heç kim, heç nə soruşmur.

**Erməni generalın açıqlamasını "Şərq"ə şərh edən politoloq Sədrəddin Soltanın sözlərinə görə, 44 günlük müharibə problemi həllinə qovuşdurub. Artıq belə bir münaqişə yoxdur:** "Müharibədən sonra Nikol Paşinyanın yenidən baş nazir seçilməsi erməni cəmiyyətinin Qarabağ adlı məsələdən yorulduğunun göstəricisidir.

Revanşist Koçaryan, Sarkisyan, vanetsyanlar Rusiyanın tapşırığı ilə mövzunu gündəmə gətirməyə səy göstərirlər. İndi yalnız Ermənistan və Azərbaycan arasında münasibətlərinin normallaşması, sülh sazişinin imzalanması əhəmiyyət daşıyır. Regionda 3+3 formatında, Azərbaycan, Ermənistan və Türkiyə arasında əlaqələrin yaxşılaşması, kommunikasiya xətlərinin açılması, sərhədlərin müəyyənləşməsi məsələsi diqqət mərkəzindədir. Ermənistan üçün illərdir, söylənilən vədlərin xülya olduğu çoxdan təsdiqlənib. Erməni ziyalılar, xalq hər şeyi anlayır. Hətta razılıq verməyənlər belə münaqişənin bitdiyini başa düşürlər".

**Politoloqun qənaətincə, erməninin generalı da, vətəndaşı da, əsgəri də reallıqla üzləşəcək:** "Aprelin 6-da Brüssel görüşündə Azərbaycanın təklif etdiyi 5 baza prinsipi əsas istiqamət idi. Tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyacaq, hörmət edəcək, əməkdaşlıq və s. gerçəkləşəcək. Uydurmalar, Ermənistanda 24 il əvvəlki hadisələrin yenidən dirçəlməsi, təkrarı xaricin, xüsusilə, Rusiyanın sifarişidir. Hadisələri rus mətbuatı daha çox təbliğ edir. 2020-ci ilin noyabrın 10-da Ermənistanın imzaladığı kapitulyasiya aktı bunu bir daha isbatladı".



# İNTİHAR virusu gəzir

## Böyük təhlükəni önləmək üçün hər kəs bir-birindən möhkəm yapışmalıdır

Elnur Rüstəmov: "Bu insanlar niyə intiharı seçir, çünki sabahını görmür. Sabaha ümidsizdir. Bəs cəmiyyət nə edir? Heç nə! Cəmiyyət bu mesajları dinləmir, görməzdən gəlir. Biganəliklə intihar arasında düz mütənasiblik var"





**Ölkədə bir gündə 8 intihar, bir də intihara cəhd hadisəsi baş verib. Müxtəlif təbəqənin insanlarıdır onlar. Müxtəlif yaş qruplarına aiddirlər, müxtəlif peşələrə sahibdirlər, işsizi də var, zabiti də, tələbəsi, şagirdi, uşağı, gənci də... Səbəblər də bir o qədər müxtəlifdir.**

Ailə dramından başlamış sevgi macərası, maddi sıxıntıdan ruhi düşkünlüyünə və sairə qədər. İntihar hadisələri o qədər artıb ki, qohum-əqrəba, dost-tanış arasında bədbəxt hadisələrin baş verdiyini görürük. İntiharlar qonşuluqda, həyətimizdə, hətta kandardadır artıq.

Nə etməliyik? Problemi köklü həll etmək mümkün deyilsə, bəlkə qabaqlayıcı tədbirlərə üstünlük verilməlidir? "Rəngarəng" intiharları, biz də müxtəlif peşə sahibləri ilə müzakirə etməyə çalışdıq.

**Psixoloq Elnur Rüstəmov "Şərq"ə açıqlamasında mühüm amillərə toxundu:**

- İntiharlara yanaşma fərqlidir artıq. Klassik yanaşma tərzi belə idi ki, intihara cəhd edənlər əsasən tənhalar, ahıl və orta yaşlı insanlar, hansısa ağır xəstəliyə tutulmuş şəxslərdir. İntihar edənlərlə bağlı 30 il əvvəlki təsnifatlaşdırmada bunlar qeydə alınırdı. Ancaq bu gün intihar yaşı çox gəncləşib, hətta "uşaqlaşıb". Bu gün yeniyetmələr, gənclər, hətta uşaqlar intihar edir. Bunlar adətən, heç bir fiziki problemi, fiziki qüsuru olmayan insanlardır. Tənha da deyillər, ailədə böyüyüblər. Vizual olaraq biz onları tənha görmürük. Belə olan halda başqa mənzərə ortaya çıxır. Bu gün vəziyyət 30 il əvvəlkindən çox fərqlidir. Müqayisə apardıqda nə görürük; informasiya bolluğu, psixoloji problemlər, stress, ailədaxili münaqişələr, ziddiyyətlər, zərərli vərdişlər... 30 il əvvəl indiki qədər boşanma faktları vardımı? Xeyr. Zərərli vərdişlərdən əziyyət çəkənlər də indiki qədər deyildi. 30 il əvvəlki intiharlarla indikilərin fərqi həm də maddi durumu yaxşı, normal, hətta yüksək olan insanların da intihar etməsidir. İntihar hadisələri dünyanın hər yerində artır. İntihar statistikasına görə ilk sıralarda Avropa ölkələridir. Hollandiya, Norveç, İsveç... Bunlar iqtisadi baxımdan inkişaf etmiş ölkələrdir. Bu ölkələrdə intihar edənlər aclıqdan, işsizlikdən, yoxsulluqdan intihar etmir. Onların başqa qayğıları var. Onları intihara sürükləyən səbəb ruhi, mənəvi tənhalıqlarıdır. Yoxsulluq insanı öldürdüyü kimi, var-dövlət də insanın sonunu yaxınlaşdıra bilir. Maddi durumu yaxşı olan insanlar arasında intihar hadisələri baş verirsə, deməli, səbəbi təkcə iqtisadi çətinliklərdə, sosial sıxıntılarda axtarmamalıyıq. Bəli, onlar da səbəblərdən biridir, amma əsas səbəb deyil.

*E.Rüstəmov qeyd etdi ki, insanlar arasında ünsiyyətin, həssaslığın itməsi, həssaslıq, biganəliyinsə artması intiharları şərtləndirir:*

- İntihar edənlərin bir qismi əvvəllər də intihara cəhd etmiş insanlardır. Onlar əvvəlcə cəmiyyətə mesaj ötürür: "bezmişəm, bu nə həyatdır, ölsəm bundan yaxşıdır"... Bu insanlar niyə intiharı seçir, çünki sabahını görmür. Sabaha ümidsizdir. Bəs cəmiyyət nə edir? Heç nə! Cəmiyyət bu mesajları dinləmir, görməzdən gəlir. Biganəliklə intihar arasında düz mütənasiblik var. İnsanlar arasında həssaslığın itməsi intiharları şərtləndirir. İnsanları biganəlik öldürür.

**E.Rüstəmov profilaktik tədbirlərin görülməsini vacib sayır:**

- Hər hansı intihar hadisəsi baş veribsə, istintaq orqanları araşdırıb, əsl səbəbini müəyyənləşdirməlidir. "Ailə məsələsidir", deyib keçmək olmaz. Bu gün bir ailədə baş verən hadisənin səbəbləri bilinməsə, sabah o biri ailədə təkrarlanacaq. Media da intiharın detallarını işıqlandırmamalıdır. Sosial şəbəkələrdə, xəbər saytlarında çılpaqlığı ilə tirajlanan intihar xəbərləri, əksinə, intihara təşviq edir. Xəbərlərin belə çılpaq şəkildə yayılması ölümü adiləşdirir. Bu, böyük təhlükədir və böyük problemdir.

**Sosioloq Lalə Mehralı da dövrümüzdə intihar mənzərələrinin dəyişdiyini bildirdi:**

- Yaradılışdan üzü bəri hər dövrdə intiharlar olub. Lakin indiki kimi olmayıb. İndi insanlar ölməyi yaşamaqdan üstün tutur. Xüsusən qaziləri, müharibə iştirakçılarını çox incidirlər. Mən qazilərdən bir neçəsinin əlillik probleminin həlli ilə məşğul olmuşam deyə, vəziyyətin necə olduğunu bilirəm. Bunu intihara cəhd edənlər arasında qazinin olması xəbərinə görə xatırladıram. Qazilərin xəstəliyini düzgün qeydə almır, kəllə-beyin travmasını "psixoloji problem" kimi qeyd edirlər. Buna görə də onlara əlillik təyin edilməsində problem yaranır. Müharibə dəhşətini yaşamış insanı elə bir həddə çatdırırlar ki, çıxış yolunu intiharda görür. Bu, intiharın yalnız bir səbəbidir. Tələbələr, abituriyentlər intihar edir. Çünki o qədər yükləniblər, həm tədris prosesində, həm də ailədə, valideynlər tərəfindən psixoloji olaraq bu ağırlığı daşıya bilmirlər. Çox zaman intiharların iqtisadi, sosial tərəfləri önə çəkilir. Hesab edirəm ki, biz intiharların mənəvi-psixoloji tərəflərini müzakirə etməliyik. Bu problem 1-2 seminar, konfrans keçirməklə həll olunası məsələ deyil. Kompleks yanaşma tətbiq edilməlidir. Ətrafımızda baş verən hadisələr, efir, ailə, bizi əhatə edən cəmiyyət - bunların hamısına ümumi, kompleks yanaşma olmalıdır. Televiziyalarda zərərli proqramlar, uşaq və gənclərin mənəvi aşınmasına səbəb olacaq verilişlər yığışdırılmalıdır. Mediada intihar xəbərləri tirajlanmamalıdır. Deyək ki, sosial şəbəkələrlə mübarizə aparmaq çətindir, hətta bəzən hesab edilir ki, mümkün deyil. Mən bu fikirlə razı deyiləm. Valideyn uşaq üzərində nəzarəti düzgün təşkil etsə, onu zərərli informasiyalardan qoruya bilər. Uşaqların faydalı məşğulluğu təmin edilməlidir. Bu gün körpələrdən başlamış məktəb yaşlı uşaqlara qədər, yeniyetmələr, gənclər də daxil hamı "Tik-Tok"dadı. Nəyə baxırlar, nə izləyirlər? Gülməli hadisələrlə yanaşı, orda sonu faciələrə səbəb ola biləcək videolar da paylaşılır. Ana niyə körpə balasının əlinə smartfon verir ki, o da hər cür zərərli videoya baxsın? Ola bilər, valideynin fiziki imkanı çatmır uşağa daim nəzarət etməyə, işləyir və sair. Anaca hesab edirəm ki, valideynlər məsuliyyət hissini artırıb, övladlarına daha çox zaman ayırsalar, intiharların sayı da azalar.



**Lalə Mehralı:** "Televiziyalarda zərərli proqramlar, uşaq və gənclərin mənəvi aşınmasına səbəb olacaq verilişlər yığışdırılmalıdır"

**Şair-publisist Aqşin Yenisey "Şərq"ə açıqlamasında intiharların qarşısının necə alına biləcəyindən danışdı:**

- Dünya Səhiyyə Təşkilatının hesabatına görə, son 50 ildə intiharların sayı 60 faiz artıb, bu gün hər 40 saniyədə bir adam intihar edir. Təxminən, yüz il əvvəl tarixdə ilk dəfə intihar statistikasını araşdıran fransız sosioloq Emili Drukheym qərara gəlmişdi ki, intihar bütün hallarda sosial hadisədir. Yəni intiharlarda heç də qatil qurbanın özü deyil, qatil cəmiyyətdir, icmadır, ailədir, dost çevrəsidir, sevgili-canandır və s. Fransız şairi Nerval sevdiyi qızın başqasının arvadı olduğunu görüncə özünü asmışdı. Ona görə də intiharın günahını təkcə fərdin iradi zəifliyinin, yaxud psixoloji cəsarətinin ayağına yazmaq düzgün deyil. İntiharda həmişə qatil olan qarşı tərəf var. Məsələn, Drukheym intiharda ailənin nə dərəcədə səbəbkar olduğunu araşdırarkən statistik məlumatlar belə bir gerçəkliyi göstərdi ki, böyük, yəni çoxuşaqlı, itli-pişikli ailələrdə özünü öldürmək istəyənlərin faiz nisbəti kiçik ailələrlə müqayisədə çox aşağıdır. Bu da o deməkdir ki, doğmalıq münasibətlərinin genişliyi intiharın önünü kəsən başlıca amillərdən biridir. Sosiologiyaya "Orta statistik insan" (homme moyen) anlayışını gətirən belçikalı alim Adolf Ketle də intiharı cəmiyyətin cinayəti hesab edir. Sosial filosof Tomaş Masarik (o, həm də keçmiş Çexoslovakiyanın ilk prezidenti idi) isə intiharda cəmiyyəti deyil, mədəniyyəti günahlandırır. İntihar professoru Dürkheym intiharların səkkiz yüzə yaxın səbəbi içindən axırıncı yerə sosial problemləri, birinci yerə eqoistik intiharları qoyur. Fərd üzvü olduğu ailədən, cəmiyyətdən, icmadan, dost çevrəsindən, yaxud sevgilisindən diqqətsizlik gördükdə ikisindən birini cəzalandırmaq fikrinə düşür, bəzən ikisini birdən cəzalandırır. Yəni bizim intiharı daha çox sosial problemlərə bağlamağımız kökündən yanlışdır. Bu gün inkişaf etmiş Norveç, Yaponiya, Cənubi Koreya kimi ölkələrdə intihar edənlərin sayı sosial bataqlıqda yaşayan, məsələn, Əfqanıstanda intihar edənlərin sayından qat-qat çoxdur. Biz sosiologiya elminə yuxarıdan aşağı baxdığımız üçün intihar səbəblərinin statistikası ilə heç kim maraqlanmır. Ona görə özümüzü daha çox nə üçün öldürdüyümüzü bilmirik. Mənim fikrimcə, Azərbaycan kimi üçüncü dünya ölkələrində intihar edən insanlar daha çox cəhalətin qurbanı olurlar. Həyatda rast gəldikləri, yaxud özlərini saldıqları bataqlıqdan çıxmaq haqqında heç bir bilgiyə sahib deyillər. Buna görə də üzləşdikləri hər ötəri depressiya intiharla nəticələnir. Ölümə can rahatlığı kimi baxır bizim insan. Ümumiyyətlə, biz kortəbii mühitdə, qanunauyğunsuzluq girdabında yaşayırıq. İnsanlara seksual azadlıq aşılamalı olan pepçimiz özü bu azadlıqla ifşa olunanda dözmür, ihtihar edir. İnsanları intihardan çəkindirməli olan psixoloqumuz hansısa bir məişət problemi ilə üzləşincə kəndirə əl atır. Hətta bizim intihar səbəblərimiz də dünya standartlarına cavab vermir.



**Aqşin Yenisey:** "Azərbaycan kimi üçüncü dünya ölkələrində intihar edən insanlar daha çox cəhalətin qurbanı olurlar. Həyatda rast gəldikləri, yaxud özlərini saldıqları bataqlıqdan çıxmaq haqqında heç bir bilgiyə sahib deyillər"

**Məlahət Rzayeva**

# Tarix təkrarlanır

## Koçaryan tərəfdarları Paşinyanı devirmək üçün “uyğun” vaxt seçiblər

**Terrorçu, qaniçən Robert Koçaryanın sağ əllərindən sayılan Samvel Karapetyan Xankəndinin mərkəzində 4 gəncə odlu silahdan atəş açıb. Məlumata görə, məlum olayla bağlı cinayət işi qaldırılıb. Xatırlatmaq yerinə düşər ki, S.Karapetyan erməni cəmiyyətində cani və Robertin cəlladlarından biri kimi tanınır.**



*Ekspert: "Ermənistandakı hadisələr sülh prosesinə ziyan vura bilər"*

Məşhur mart 2008-ci il hadisələri zamanı Karapetyan özünün birbaşa rəhbərliyi ilə 20 nəfərlik qrupu həmin vaxt Prezident iqamətgahının zirzəmisində gizlətmişdi. 1 mart mitinqləri zamanı məhz həmin dəstənin üzvləri müxalifətin, o cümlədən Ter-Petrosyan və Paşinyanın tərəfdarlarına atəş açmışdı. Görünən odur ki, atəş açmaqda və terrorda xüsusi təcrübələri olan Robert Koçaryan, Samvel Karapetyan, Serj Sarkisyan bəzi xarici dairələrdən uzun müddətdən sonra aldıqları xeyir-dua ilə Nikol Paşinyana qarşı genişmiqyaslı təzyiqə start veriblər.

**Politoloq Zaur Məmmədov vurğulayıb ki, İrəvanda, Gümrüdə, Üçkilsədə və s. regionlarda davam etməkdə olan aksiyalar Xankəndiyə də təsirsiz ötüşməyəcək. Ekspertə görə, yaxın vaxtlarda revanşist qüvvələrin məqsədlərinə çatmayacaqları təqdirdə, Qarabağdakı ermənilər arasında da bölgü aparacaqları istisna deyil:** ”Bəzi iddialara görə, Robert yaxın ətrafı vasitəsilə Arutyunyandan mövqe nümayiş etdirməyi tələb edib. Samvel Karapetyan tərəfindən açılan atəş də separatçılar arasında da vəziyyətin yaxşı olmadığının, Ermənistandakı siyasi mübarizənin yaxın vaxtlarda Xankəndidə daha ciddi şəkildə hiss ediləcəyindən xəbər verir. Bu xüsusda, istisna etmirəm, hətta əminəm ki, son günlərdə Kəlbəcər istiqamətində Azərbaycan ordusuna qarşı törədilən təxribatın arxasında mart ayında Fərruxlu kəndindəki təxribatda olduğu kimi məhz Koçaryan dayanır. Bununla Koçaryan və onun komandası ”sərhəddəki mümkün uğursuzluq” fonunda Paşinyanın ictimaiyyət qarşısındakı reytinqini çalxalamaq istəyir. Bu təcrübə yeni deyil, bundan əvvəl sülhməramlıların müvəqqəti yerləşdikləri ərazidəki təxribat nəticəsində Paşinyana ciddi şəkildə təzyiqlər edilmişdi. Hətta Paşinyan sülhməramlıları günahlandıran bəyanatlar da vermişdi. Hazırda müəyyən dövlətlər və müxalifət Paşinyanı devirmək üçün ”uyğun” vaxt seçiblər. 1998-ci ildə olduğu kimi bu dəfə də Azərbaycan və Ermənistan arasında ciddi danışıqların getdiyi bir vaxtda Robert Koçaryan keçmiş təcrübəsini ikinci dəfə reallaşdırmaq və legitim hakimiyyəti kürsüdən qovmaq iddiasına düşüb. Tarix yenidən təkrarlanır. Sadəcə, indi Ter-Petrosyanın yerinə Paşinyandır. Radikal müxalifətin arxasında isə elə həmin xarici dairələr və daxildəki qaniçən sosial bazadır”.

**Z.Məmmədova görə, Ermənistandakı hadisələr sülh prosesinə ziyan vura bilər:** ”Ermənilər əmin olmalıdırlar ki, Paşinyanın mövcud vəziyyət fonunda üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi və ya yeni gələcək hakimiyyətin ”öhdəlikləri biz götürməmişik, xain Paşinyan götürüb” kimi mümkün iddiaları - yeni müharibəni labüd edəcək. Ermənistan və Rusiya dövlətləri Üçtərəfli Bəyanatın tərəfləri kimi üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmədikləri təqdirdə Azərbaycan xarici siyasət istiqamətləri ilə bağlı ciddi qərarlar qəbul edəcək”.

**İsmayıl Qocayev**

---

**Uzun müddət işğal altında qalan Füzuli şəhəri yenidən qurulur və bərpa olunur. Mayın 10-da Azərbaycan Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində Peşə Liseyinin və 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər**.



Ölkə rəhbərliyi yeni yaradılacaq parkda ağac əkiblər. İşğaldan azad olunan ərazilərimizdə ikinci ağıllı kənd də Füzuli şəhərinin yaxınlığında yerləşən Dövlətyarlı kəndində inşa ediləcək. Əminliklə söyləmək olar ki, 50 minlik sakini olacaq Füzuli şəhəri gözləniləndən daha qısa müddətdə yenidən bərpa olunub məskunlaşmağa hazır olacaq.

# Füzuli daha müasir şəhər olacaq

## Yenidənqurma məskunlaşma prosesinin gözləniləndən daha tez olacağından xəbər verir

**Millət vəkili Vüqar Bayramov bildirib ki, son təməlqoymalar bir daha təsdiq edir ki, Füzuli rayonu artıq yeni bərpa-quruculuq işlərinə qədəm qoyub. Deputatın sözlərinə görə, Füzuli Beynəlxalq Hava Limanı dünyada ən qısa müddətdə inşa edilən hava limanlarından biridir:** ”Hava Limanı beynəlxalq standartlara uyğun olaraq qurulan və beynəlxalq uçuşları həyata keçirəcək hava limanıdır. Füzuli rayonunun nəqliyyat və logistik infrastrukturunun formalaşdırılması istiqamətində də işlər intensiv şəkildə həyata keçirilir. Horadiz-Ağbənd dəmir yolu xətti, eləcə də Horadizlə Zəngilanı birləşdirəcək avtomobil yolu, o cümlədən Füzuli-Hadrut, Füzuli-Şuşa Zəfər yollarının inşa edilməsi mühüm göstəricilərdir. Bu, ondan xəbər verir ki, işğaldan azad edilmiş torpaqlarımız çox qısa zamanda bərpa və yenidənqurma mərhələsinə qədəm qoyub. Bərpa və yenidənqurmanın daha intensiv şəkildə aparılması məskunlaşma prosesinin gözləniləndən daha tez olacağından xəbər verir. Füzuli şəhəri öz tarixində bütövlükdə yeni mərhələyə qədəm qoyur. Biz gülüşün və həyatın uzun zamandır işğalda qalan Füzuliyə yenidən qayıtdığını görəcəyik. Füzuli artıq yeni və müasir standartlara uyğun olaraq qurulan bir şəhər olacaq. Bu da təbii ki, Qarabağın həyata yenidən və daha tez qayıdacağı anlamına gəlir”.

**İsmayıl Qocayev**

---



# Ankara Asiyanı yenidən fəth edir

## “Obrazlı desək, Türkiyə üç qitədə jandarma funksiyasını yerinə yetirəcək”

**İsmayıl Qocayev**

**”Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Qazaxıstan Prezidenti Kasım Jomard Tokayev arasında ikili və genişheyətlərlə görüş keşrildi”. Bu barədə Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədri Samir Hümbətov deyib.**

Analitik bildirib ki, Türkiyə və Qazaxıstan arasında ümumi həcmi 1 milyard dollardan artıq olan sənədlər imzalanıb: ”Tərəflər arasında müxtəlif sahələri əhatə edən 15 sənəd, o cümlədən, strateji müttəfiqlik haqqında sənəd imzalandı. Sənədlər hər iki ölkə arasında siyasi, iqtisadi, hərbi, mədəni və strateji sahədə əməkdaşlığın daha da dərinləşdirilməsi və şaxələndirilməsini nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, 2022-ci ilin yanvar ayının əvvəlində Qazaxıstanda sosial zəmində başlayan etiraz aksiyaları qısa vaxtda ölkənin bir neçə şəhərini bürüdü və Tokayev bu aksiyaları yatırtmaq üçün Rusiyanın başçılıq etdiyi KTMT qüvvələrini köməyə çağırdı. Əlbəttə, həmin vaxt əksər analitiklər hesab edirdilər ki, Qazaxıstanda baş verənlər onun türkdilli dövlətlərlə, xüsusilə də Türkiyə ilə münasibətlərinə zərbə vuracaq. Amma baş verən proseslər onu göstərir ki, vəziyyət heç də o yöndə cərəyan etmir. Əksinə, Qazaxıstan Ukrayna məsələsində Rusiyaya dəstək verməməklə yanaşı həm də Türkiyə ilə münasibətləri ən yüksək səviyyəyə qaldırmaq niyyətində olduğunu açıq şəkildə ortaya qoymuş oldu. Sual yaranır ki, Rusiya ilə həm Gömrük İttifaqında, həm KTMT-də, həm Avrasiya İttifaqında birgə olmasına baxmayaraq, Qazaxıstanı belə cəsarətləndirən amillər haradan qaynaqlanır? Təbii ki, burada ilk ağla gələn Rusiyanın Ukraynada apardığı uğursuz işğalçılıq müharibəsidir. Digər tərəfdən son zamanlar Türkiyənin regionda və dünyada artan nüfuzudur. Burada Türkdilli Dövlətlər Təşkilatını yaddan çıxarmaq mümkün deyil”.

**S.Hümbətov qeyd edib ki, gözləniləndir ki, yeni dünya düzənində Rusiyanın nüfuzunun daha çox olduğu regionlarda, xüsusilə də Mərkəzi Asiyada əldəyişimi baş verəcək və onu Türkiyə əvəz edəcək:** ”Obrazlı desək, Türkiyə üç qitədə jandarma funksiyasını yerinə yetirəcək. Bu isə o deməkdir ki, Türkiyə həm Avropada, həm Asiyada, həm də Afrikada getdikcə daha da güclənəcək.

Rusiyanın tədricən çəkildiyi regionlarda isə yeni strateji hədəf uğrunda mübarizə güclənəcək. Burada isə Türkiyənin yeni rəqibi Çin ola bilər. Nəzərə alsaq ki, Çinin də Qazaxıstanda güclü nüfuzu var, o zaman Qazaxıstan uğrunda yeni mübarizənin Türkiyə və Çin arasında gedəcəyi daha çox real görünür. Çin Mərkəzi Asiyada yumşaq güc kimi iqtisadi rıçaqlardan istifadə etdiyi halda, Türkiyə həm siyasi, həm iqtisadi, həm mədəni, həm də dini rıçaqlardan istifadə edir”.

---

# Sanksiyalar Kremli çökdürüb

## Rusiya Ukraynadan qoşunlarını çıxarmasa belə məğlub olacaq

**Rusiya Təhlükəsizlik Şurasının rəhbərinin müavini Dmitri Medvedyev NATO ilə Rusiya arasında potensial münaqişə ehtimalının artdığını bildirib. O bildirib ki, Ukraynanı silahla təmin etmək bu ehtimalı artırır. Bu da nüvə müharibəsinə çevrilə bilər. Bu isə hamı üçün fəlakətli senaridir:**

”NATO ölkələrinin Ukraynanı silahla doldurması, onun qoşunlarının Qərb texnikasından istifadəyə öyrədilməsi, muzdluların göndərilməsi və alyans ölkələrinin bizim sərhədlərimizə yaxın təlimlər keçirməsi hərbi alyansla birbaşa və açıq münaqişə ehtimalını artırır”. Medvedyev vurğulayıb ki, xarici analitiklərin NATO-nun Rusiya ilə müharibəsilə bağlı bitib-tükənməyən söhbətləri səngimək bilmir. Xatırladaq ki, ötən gün Rusiya rəhbəri Vladimir Putinin də sərt açıqlamaları gündəmə gətirilmiş, Kreml rəhbərinin genişmiqyaslı və uzunmüddətli müharibəyə hazırlaşdığı deyilmişdi. Ümumiyyətlə, 9 may paradından sonra Moskvanın müəyyən addımlar atacağı iddia olunurdu. Ancaq hələlik heç bir hərəkətlilik müşahidə olunmur.

*“Rusiyanın 3-cü dünya müharibəsinə səbəb olması da reallıqdan uzaqdır. Çünki rusların hərbi potensialı qlobal savaş çıxartmağa uyğun deyil”*

**Politoloq Azər Qasımov ”Şərq”ə bildirib ki, Qərb heç vaxt Rusiyanın Ukraynaya hücum edəcəyini ağlına gətirmirdi. Ekspertə görə, ABŞ və Avropa ölkələri bu senarini imkansız sayırdılar:** ”Qərb müharibə ehtimalını zaman-zaman müzakirə etsə də, Putinin belə ağılsızlıq edəcəyini gözləmirdi. Moskvanın hərbi paradda səfərbərlik və ya Ukraynaya rəsmi müharibə elan edəcəyi iddia edilsə də, bu, baş vermədi. Əslində, bunun obyektiv səbəbləri var idi. Rusiya belə addımla indiyə kimi deyilən ”hər şey plan üzrə gedir” yalanını isbat etmiş, vəziyyətin pis olduğu gerçəyini sübut etmiş olardı. Görünən odur ki, Moskva hələ ki, bunlarsız müharibəni davam etməyə qərarlıdır. Rusiyanın Ukraynanı işğalı nəticəsində Qərb öz istəyinə nail oldu. Rusiya Qərbin əlindədir. Qərb isə Ukraynanı hərbi poliqona çevirmək üçün nə lazımdırsa edəcək. Məqsəd Rusiyanı Ukrayna bataqlığına daha çox batırmaqdır”.



Analitikin fikrincə, Rusiya Ukraynadan qoşunlarını çıxarmasa belə məğlub olacaq: ”Sanksiyalar Putin rejiminin belini bükəcək. Rusiya üçün həqiqətən də ağır və çətin günlər başlayır. Rusiyanın belə bir ordu ilə ciddi irəliləyiş etmək şansı çox azdır. Böyük itkilər hesabına nəyəsə nail olmaq məğlubiyyət hesab olunur. Rusiyanın son anda nüvə silahına əl atacağı ehtimalı mümkün variantdır. Amma bu, elə də sadə məsələ deyil. Rusiyanın 3-cü dünya müharibəsinə səbəb olması da reallıqdan uzaqdır. Çünki rusların hərbi potensialı qlobal savaş çıxartmağa uyğun deyil. Müharibənin genişlənməsi Putin Rusiyasının sonunu daha tez gətirər. İnanmıram ki, Putin Ukraynaya hücum etməkdən daha ağılsız bir addıma əl atar. O, hər şeydən öncə canını çox istəyən adamdır. Koronavirus pandemiyası ilə əlaqədar aldığı qeyri-adi tədbirlər bunu isbatlayır. Bu baxımdan, Putinin son anda məğlub olub geri çəkiləcəyi reallığı ən mümkün sonluqdur. Rus xalqının bunu necə qəbul edəcəyi isə çox maraqlı olacaq”.

**İsmayıl Qocayev**

---

# Özünə əmin olan peşəkar müəllimlərin əndişəsi yoxdur

**Müəllimlərin sertifikatlaşdırılması prosesinə başlanılır. Təhsil Nazirliyindən verilən məlumata görə, iyun ayından etibarən dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlər mərhələli şəkildə sertifikatlaşdırılacaq:**

”Təhsilverənlərin sertifikatlaşdırılmasının keçirilməsində məqsəd ümumi təhsil müəssisələrində pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması, onların peşəkar inkişafına nail olmaq və təlim ehtiyaclarını öyrənməkdir.

Təhsilverənlərin sertifikatlaşdırılması prosesi üzrə hazırlıqlara iyun ayında, test imtahanı mərhələsinə isə avqust ayının sonlarında başlanılması nəzərdə tutulur.

Sertifikatlaşdırmanın nəticələri təhsilverənlərin karyera inkişafında və əməyinin stimullaşdırılmasında nəzərə alınacaq. Üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikasiya üçün tələb olunan minimum balı toplamayan şəxslər 1 il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malik olacaqlar”.



*Bütün təhsilverənlərin sertifikasiyadan keçirilməsi təqdirəlayiq haldır*

Qeyd edək ki, məsələni sosial şəbəkələrdə müzakirə edən müəllimlər arasında sertifikatlaşdırılmanın əleyhinə olanlar vardı. Onlar həmkarlarını sertifikasiya imtahanlarını boykot etməyə çağırırdı.

**Təhsil eksperti Qoşqar Məhərrəmov isə hesab edir ki, sertifikasiya pedaqoji işçinin, müəllimin öz ixtisasını hansı səviyyədə bilməsini müəyyənləşdirəcək. O, ”Şərq”ə açıqlamasında deyib ki, sertifikasiya imtahanlarının keçirilməsi müəllimlər üçün gözlənilən bir qərardır. Uzun müddətdir bu barədə müzakirələr gedirdi:** ”Şəxsən mən müəllimlərin sertifikatlaşdırma prosesini düzgün qərar hesab edirəm, hətta bu bir zərurətdir. Beynəlxalq praktikada da var bu. Bütün peşələr üzrə sertifikasiya imtahanlarının aparılmasına ehtiyac var. Burada məqsəd müəllimlərin müasir təhsilə nə dərəcədə uyğun olmasını, öyrətdiyi fənn üzrə baza biliklərinin nə dərəcədə yetərli olub-olmadığını yoxlamaqdır. Bu imtahandan keçə bilməyən müəllim dövlətin resurslarını boşuna tükətmiş, şagirdlərin vaxtını almış olur. Sertifikasiya təhsilin inkişafına yönəlmiş addım olacaq. Belə ki, bu, ilk növbədə müəllimlərin hazırlıq səviyyəsini və savadını müəyyən edir. Ona görə də bütün təhsilverənlərin sertifikasiyadan keçirilməsi təqdirəlayiq haldır. Öz biliyindən əmin olan müəllimlərin narahatçılıq keçirməsinə və narazılıq bildirməsinə elə də ciddi səbəb görmürəm. Amma elə müəllimlər var ki, tədris etdiyi fənn üzrə baza bilgilərinə belə sahib deyil. Sertifikasiya da məhz həmin müəllimlərin aşkarlanması və təhsil sistemindən uzaqlaşdırılması üçün vacib məsələdir. Təbii ki, oxuyub-öyrənmək üçün onlara bir il möhlət verilməsində fayda var”.

**Şəymən**

# İlin sonuna kimi Aİ ilə yeni sazişin imzalanması realdır

## Tərəflərin strateji maraqları əməkdaşlığın dərinləşdirilməsini zəruri edir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



**Azərbaycan Avropa İttifaqı (Aİ) ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafında maraqlıdır. Ölkəmiz 2009-cu ildən bəri Aİ ilə Şərq Tərəfdaşlığı (ŞT) proqramı çərçivəsində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir. Aİ Azərbaycanın ən böyük ticarət və ixrac tərəfdaşıdır. İdxal tərəfdaşları sırasında Aİ 2-ci yerdə dayanır.**

Prezident İlham Əliyevin iştirakı ilə 11 iyul 2018-ci il tarixində Brüssel şəhərində sənəd üzrə danışıqların bitməsini qeyd edən mərasim keçirilib. Sənəd 28 sentyabr 2018-ci il tarixində Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının tövsiyəsi ilə qəbul edilib və həmin tarixdən qüvvəyə minib. Tərəfdaşlıq Prioritetləri - qurumların gücləndirilməsi və yaxşı idarəçilik, iqtisadi inkişaf və bazar imkanları, enerji səmərəliliyi, ətraf mühit və iqlim fəaliyyəti, yerdəyişmə və insanlar arasında əlaqələri əhatə edir. Sənəddə tərəflər ərazi bütövlüyü, dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığı, bir-birilərinin müstəqilliyi və suverenliyinə hörmət və bu prinsiplərin dəstəklənməsinə sadiq qalmaqla öz aralarında münasibətlərini daha da inkişaf etdirmək məqsədi daşıdıqlarını bildirirlər. Hazırda sənədin müddətinin 2027-ci ilədək uzadılması istiqamətində iş aparılır.

Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko ADA Universitetində keçirilən "Avropa günü"nə həsr olunmuş seminar zamanı deyib ki, Azərbaycan Avropa İttifaqının (Aİ) əsas enerji tərəfdaşlarından biridir. Onun sözlərinə görə, Azərbaycan həm "Şərq tərəfdaşlığı" formatında, həm də iqtisadiyyatın müxtəlif sektorlarında Aİ-nin ən yaxın tərəfdaşlarındandır: "Bizim Azərbaycanla əməkdaşlığımızın prioritetləri həm də rəqəmsal texnologiyalara keçid, kənd rayonlarının inkişafı və insanlar arasında təmasın gücləndirilməsidir".

O qeyd edib ki, Azərbaycanla Aİ arasında yeni hərtərəfli saziş məhsuldar əməkdaşlığı daha da möhkəmləndirəcək: "Biz ümid edirik ki, yeni hüquqi baza inkişafın daha da dərinləşdirilməsi üçün imkan yaradacaq".

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Rəşad Novruz da bildirib ki, Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında yeni hərtərəfli saziş tezliklə əldə olunacaq və layiqli nəticələr verəcək: "Azərbaycan və Aİ bir-biri üçün anlayışlı tərəfdaşdır. Məhz buna görə bizim əməkdaşlığımız bundan sonra da inkişaf edəcək". R.Novruzun sözlərinə görə, Aİ Azərbaycan üçün təkcə ən iri ticarət tərəfdaşı deyil, həm də investisiyalara görə birinci yeri tutur: "Azərbaycan da ikitərəfli münasibətlərlə bağlı Aİ kimi gələcəyə baxır".

Fransanın Azərbaycandakı səfiri Zakari Qross da qeyd edib ki, Aİ Azərbaycanla əməkdaşlığı inkişaf etdirməyə çalışır: "Biz Azərbaycanı tərəfdaş kimi görürük". O, ümidvar olduğunu bildirib ki, tərəflər arasında bu münasibətlər gələcəkdə də inkişaf edəcək.

Litvanın Azərbaycandakı səfiri Eqidius Navikas bildirib ki, Aİ ilə Azərbaycan arasında vizasız rejimin tətbiqi daha məhsuldar əməkdaşlıq üçün vacib addım ola bilər. Onun sözlərinə görə, Azərbaycanla Aİ arasında münasibətlər ikinci Qarabağ müharibəsindən sonra daha intensiv mərhələyə keçib: "Aİ şirkətləri Qarabağda bərpa işlərində fəal iştirak edir. Aİ, həmçinin Azərbaycanla Ermənistan arasında dinc münasibətlərin qurulmasında vasitəçi kimi çıxış edir".

**Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığı barədə "Şərq"ə danışan siyasi şərhçi Zaur İbrahimli deyib ki, Aİ ilə Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi 22 aprel 1996-cı il tarixində Lüksemburq şəhərində imzalanıb və 1 iyul 1999-cu il tarixində qüvvəyə minib. Ekspertə görə, sənəd Avropa İttifaqı (Aİ) ilə, hərbi sahə istisna olmaqla, bütün sahələrdə əməkdaşlıq münasibətlərinin hüquqi əsasını təşkil edir və əməkdaşlığın formatını müəyyənləşdirir:** "10 il müddətinə imzalanmış Sazişin icra müddəti 2009-cu ildə bitməsinə baxmayaraq, onun icrası yeni sazişin imzalanmasına qədər hər il avtomatik olaraq 1 il müddətinə uzadılır. Azərbaycan 2009-cu ildən bəri Aİ ilə Şərq Tərəfdaşlığı (ŞT) proqramı çərçivəsində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir. Avropa Qonşuluq Siyasətinin yeniləşdirilməsindən sonra Aİ Azərbaycanla Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planını əvəz edəcək yeni Tərəfdaşlıq Prioritetləri sənədi üzrə danışıqlar aparır. Sənəd 28 sentyabr 2018-ci il tarixində Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının tövsiyəsi ilə qəbul edilib. Həmin tarixdən qüvvəyə minib. Hazırda Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti, yəni quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzalayıb. Aİ Azərbaycanın əsas ticarət, o cümlədən ən böyük ixrac tərəfdaşıdır. Azərbaycanın ticarətinin 40 faizdən çoxu birliyə üzv dövlətlərin payına düşür. 2020-ci ildə tərəflər arasında ticarət dövriyyəsi 9,5 milyard ABŞ dolları olub. Bu il fevralın 4-də Bakıda, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı çərçivəsində Azərbaycanın Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilib. Tədbirdən sonra Avropa İttifaqının genişlənmə və qonşuluq üzrə komissarı Oliver Varhelyi iqtisadi sərmayə planı çərçivəsində Azərbaycana 2 milyard avroluq maliyyə paketinin ayrılması barədə bəyanatla çıxış etdi. Azərbaycan hazırda Aİ-nin qaza tələbatının 5 faizini ödəyir".

**Z.İbrahimli vurğulayıb ki, Aİ 2021-ci ildən Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün fəal vasitəçilik səylərinə başlayıb:** "Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini qəbul edərək, Bakının irəli sürdüyü prinsipləri qəbul etdi. Hazırda Aİ Ermənistanla danışıqlarda əsas vasitəçi kimi çıxış edir. Bütün bunlar deməyə əsas verir ki, Aİ ilə yeni saziş bu il imzalana bilər. Sazişin imzalanması ilə bağlı açıq məlumatlardan o qənaətə gəlmək olar ki, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvlüyü, kənd təsərrüfatının subsidiyalaşdırılması, bəzi nəqliyyat məsələləri, hava məkanının açılması, daxili bazarda qiymətlərin tənzimlənməsi ilə əlaqədar məsələlər razılaşdırılmamış qalıb. Düşünürəm ki, bu məsələlərlə bağlı ortaq baxış əldə edilib. Vacib məqam Aİ və rəsmi Bakının əməkdaşlığın genişləndirilməsi üçün siyasi iradə nümayiş etdirməsidir. Həmçinin, hazırda tərəflərin strateji maraqları əməkdaşlığın dərinləşdirilməsini zəruri edir. Bir çox vacib istiqamətlər, xüsusən təhlükəsizlik və müdafiə, Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsi, nəqliyyat və kommunikasiya dəhlizləri vasitəsilə ticarətin dəstəklənməsi, Aİ ilə qonşu regionlarda sabitlik və sülhün bərqərar olunmasında maraqları üst-üstə düşür. Məhz bu səbəbdən ilin sonuna kimi sözügedən sazişin imzalanması real görünür".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Valideynlər pullarını boşuna xərcləyir

## Eyni vaxtda 5 yaşlı uşağı həm idmana, həm musiqiyə, həm rəsmə, həm də şahmata qoymaq zərərlidir

**Asudə vaxtın təşkili uşaqların həm fiziki, həm də psixi sağlamlığı üçün böyük əhəmiyyət kəsb edir. Hər bir ailə uşaqların istirahət günləri və asudə vaxtlarının səmərəli təşkil olunmasına imkan daxilində şərait yaratmağa borcludur. Çünki uşaqların əxlaqi və estetik tərbiyəsinin inkişafında istirahətin özünəməxsus yeri var. Tətilin müxtəlif yerlərdə keçirilməsi uşaqlarda xoş təəssürat, gözəl əhval-ruhiyyə yaradır. Uşaqlar bir-biri ilə fikir mübadiləsi edir, təəssüratlarını bölüşür, yeni məlumatlar əldə edirlər.**



Bir çox ailələr uşaqların istirahət və asudə vaxtlarının təşkil olunmasına bir o qədər də əhəmiyyət vermirlər. Hətta elə ailələr də var ki, övladını istirahət üçün maraqlı yerlərə, müxtəlif ölkələrə aparsa da uşaq daxilən bundan zövq almır. Səyahətlər onu sevindirmir. Deməli, burada ilk növbədə uşağın maraqları, psixologiyası, daxili aləmi nəzərə alınmalı, hər bir valideyn öz uşağı üçün nəyin daha maraqlı olduğunu bilməlidir.

Özünün şəxsi feysbuk hesabında bu mövzuya toxunan "Azadqadın.az" saytının baş redaktoru Aynur Qurbanqızı azyaşlı uşağa çox yatırım etməyin tərəfdarı olmadığını yazıb. Onların öyrəndikləri biliklərin zamanla unudulduğunu qeyd edən həmkarımız hesab edir ki, onsuz da böyüyəndə unudulur: "Boşuna valideyn yorulur, həm fiziki, həm maddi. Misal üçün, 4-5 yaşlı uşağı həm idmana, həm musiqiyə, həm rəsmə, həm də şahmata qoymaq kimi.... Bu sahələr üzrə gələcəyi professional davam etsə başqa məsələ. Amma belə düşünürəm ki, nə mənası var. Düzdür, artıq yaxşı pulun və uşağı aparıb-gətirməyə adam olsa, əlbəttə, bir ziyanı yoxdur. İnkişafına xeyirdir. Amma digər halda pul və vaxt itkisidir, deyə düşünürəm".

Sözügedən post ətrafında müzakirə aparan valideynlər arasında fikirlər haçalanıb.

Onların fikrincə, vacib olan uşağın kursa getməsi yox, kursdan sonra valideynin onun etdiklərinə dəyər verməsi və uşağın fəaliyyət məhsullarını düzgün "saf-çürük" etməsidir.

**Psixoloq Gülnarə Əliyeva "Şərq"ə açıqlamasında bildirib ki, asudə vaxtın səmərəli təşkili zamanı ilk növbədə uşağın yaşı və həmin yaş üçün uyğun olan aparıcı fəaliyyət növünü nəzərə almalıyıq:** "3-5 yaşlı uşaqların daha çox anası ilə vaxt keçirməsi, oyunlar oynaması daha məqsədəuyğundur. Bu uşaqların ruh sağlığı, valideyn-övlad arasındakı bağların möhkəmlənməsi baxımından çox vacibdir. 5 yaşından sonra isə uşaqları müxtəlif məşğuliyyətlərə yönləndirmək olar. Hardasa o fikirlə razıyam ki, bu yaşda uşaqlar öyrəndikləri məşğuliyyətlərin hamısını yadında saxlaya bilmir. Əgər davamlı olaraq həmin fəaliyyət sahəsinə maraq göstərib, məşğul olmursa, bir müddət keçdikdən sonra öyrəndiyi rəqsi, şahmatı, idman növünü unudur. Amma onsuz da burada valideynin məqsədi övladına o sahənin elmi dərinliyini aşılamaq deyil. Burada əsas məqsəd uşağın şəxsiyyət kimi yetişməsinə, zəngin dünyagörüşünün formalaşmasına nail olmaqdır. Kiçik yaşlarından musiqi ilə məşğul olan uşaqlar böyüdükcə duyğularını, hisslərini daha yaxşı ifadə etmə, səslərdən, sözlərdən doğru şəkildə istifadə etmə bacarığına sahib ola bilirlər. Bədən quruluşunun, əzələ sisteminin formalaşması üçün rəqs növləri son dərəcə əhəmiyyətlidir.

Kurslarda keçilən məşğələlər uşaqların duyğusal inkişafını dəstəkləyir. Kollektiv içərisində özünənəzarət, ünsiyyət bacarığının inkişafına kömək edir. Bütün bunlar isə uşaqda özgüvən yaradır, özünü bir şəxsiyyət kimi tanımasına səbəb olur. Uşağın kiçik yaşlarından müxtəlif yaradıcılıq növləri ilə məşğul olması qavrama, düşünmə, qəraralma, seçim etmə, problem həll etmə kimi zehni bacarıqlarını formalaşdırır. Bu cür uşaqlar yaşıdlarından fərqlənir, sosial varlıq kimi özlərini daha tez dərk etməyə və ifadə etməyə başlayırlar".

*Psixoloqun sözlərinə görə, uşağı yönləndirdiyimiz istiqamət valideynin deyil, uşaqların öz seçimi olmalıdır:* "Bəzən valideynlər uşaqlıqda etmək istəyib edə bilmədiklərini övladlarına aşılamaq, onları həmin sahəyə yönəltmək istəyirlər. Öyrənəcəyi musiqi alətindən tutmuş idman növünə qədər hər şeyi uşaqlar özləri seçməlidir. Eyni anda uşağı fərqli fəaliyyət bacarığı öyrədən kurslara aparmaq olar, lakin rəsmə marağı olan uşağı şahmata, rəqsə həvəsi olan uşağı idmana aparmaq olmaz. Uşağın hər şeydən bir az, bir az bilməsi üçün etdiyimiz bu addım onu bütün yaradıcılıq sahələrindən soyuda bilər. Belə uşaqlar heç bir sahədə özlərini tapa bilmirlər. Uşağın maraq obyekti onun daxili tələbatına uyğun yönləndirilməlidir. Professor Dipak Çopranın da dediyi kimi riyaziyyatı yox, tennisi yaxşı bilən uşaqları riyaziyyat elminə yönləndirirlər. Halbuki, həmin uşağın tennis sahəsi üzrə mükəmməlləşməsi üçün çalışmaq lazımdır. Mən də o fikirdəyəm ki, uşağı yormadan, yaşına uyğun fəaliyyət sahələrinə yönəltməkdə bir problem görmürəm".

**Psixoloq-konsultant, psixoterapevt Nərgiz Hüseynova isə hesab edir ki, səmərəli təşkili uşağın əxlaqi, estetik, əqli tərbiyəsində müstəsna rol oynayır. Uşağın dünyagörüşü formalaşır, zənginləşir, təəssüratları inkişaf edir:** "Uşaqları kurslara göndərib, məşğələlərə cəlb etməsək onun daxilindəki istedadı üzə çıxara bilmərik. Uşağın hansı fəaliyyət sahəsi üzrə talantı olduğunu bilməsək gələcəkdə onun inkişafı və özünü təkmilləşdirməsinə mane ola bilərik. Onun üçün də fərqli-fərqli kurslara aparmaq, bütün sahələr üzrə bacarığını, götürmə qabiliyyətini yoxlamaq lazımdır. Dil kursları, musiqi, şahmat dərnəkləri uşaqların beyin inkişafı üçün çox vacibdir. Bu kimi məşğuliyyətlər uşağın asudə vaxtının səmərəli istifadəsi üçün çox əhəmiyyətlidir. Kursa getməyən uşaqlar bütün gün ya telefon, ya da televizor qarşısında oturub zərərli informasiyaları qəbul edir.

Məsələyə sırf individual yanaşası olsaq eyni anda bir neçə fəaliyyət sahəsi üzrə peşəkar məşğul olan bacarıqlı uşaqlar var. Amma uşaq üçün eyni anda bir neçə kursa getmək, müxtəlif sahələr üzrə məşğələlərdə oturmaq ağır və yorucudursa, bu zaman valideynin sərf etdiyi vaxt və pul itkiyə gedir. Ən yaxşısı uşağın marağı olan sahəni tapıb üzə çıxartmaqdır. Ailəsində poliqlot olan uşaqlar var ki, 4-5 yaşından bir neçə dildə danışmağa meyillilik yaranır və gələcəkdə həmin dilləri mükəmməl şəkildə mənimsəyə bilir. Amma elə uşaq da var 2 dildə danışmağa cəhd edən kimi fikirləri dolaşır və özünü ifadə edə bilmir. Məşğələlər incə motorikanın inkişafına çox böyük dəstək verir və uşaqların sosiallaşmasına, rahat ünsiyyət qurmasına səbəb olur".

**Şəymən**



# Gürcüstanda məscid tikmək həmişə problem olub

## Gürcü millətçiləri ermənilərin təsiri ilə soydaşlarımıza maneə yaradırlar

**İsmayıl Qocayev**

**Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonunun Axlı Lələ kənd sakinləri məscid tikintisinə icazənin verilməməsi səbəbi ilə etiraz aksiyası keçiriblər. Sakinlər bir ildən çoxdur ki, kənddə məscidin tikintisinin qarşısının alınması məqsədilə süni əngəllərin yaradıldığını bildiriblər.**

Aksiyaya Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov və idarənin digər əməkdaşları da dəvət olunublar. Hacı Ramin İgidov sakinlərlə görüşü zamanı qeyd edib ki, bugünədək istər Marneuli meriyası, istərsə də digər aidiyyəti orqanlara dəfələrlə şifahi və yazılı şəkildə müraciət edilərək məscidin tikintisi üçün icazə istənilib. Lakin bir sıra süni problemlər əsas gətirilərək tikinti işləri dayandırılıb. O əlavə edib ki, Gürcüstan Müsəlmanları İdarəsinin sonuncu məktubuna Marneuli meriyasından verilən cavabda bildirilib ki, tikinti aparılan ərazisi kənd təsərrüfatı təyinatlıdır və məscidin tikilməsi üçün əvvəlcə ərazinin təyinatı dəyişdirilməlidir.

Hacı Ramin İgidov bu tələbin yerinə yetirilməsindən sonra başqa maneələr çıxarılmayacağına ümidvar olduğunu qeyd edib.

**Mövcud problemlə bağlı "Şərq"ə danışan ilahiyyatçı Tural İrfan bildirib ki, Gürcüstanda məscid tikmək əzəldən problem olub. Ekspert vurğulayıb ki, gürcü millətçiləri ermənilərin təsiri ilə soydaşlarımıza maneə yaradırlar:** "Hətta kəndlərin adlarını gürcüləşdirib, girişlərə xaç basdırıblar. Məscidin yarımçıq qalmasına etiraz edən sakinlər Avropa məhkəməsinə qədər getməlidir. Qərar müsbət olarsa, presedent yaranar və sonrakı dönəmdə belə problem yaşamazlar. Avropa demokratiyasına yaxınlaşmağı hədəf alan Gürcüstanın dini azadlıqları məhdudlaşdırması özü beynəlxalq qanunlara ziddir. Həmçinin, gürcü parlamentində məsələ qaldırılmalıdır. Azərbaycan hökuməti də məsələnin həlli üçün müvafiq addımlar ata bilər. Amma bir məqam var ki, son zamanlar Gürcüstanda İranın təsiri həddən artıq artıb. Oradakı soydaşlarımız arasında məzhəbçilik, anti-türk təbliğatı din pərdəsi altında aparılır. Ola bilsin, sözügedən məscid məhz İran dəstəyi ilə tikilir. Dəqiq bilmirəm. Hər halda baxmaq lazımdır ki, tikilməsinə niyyətlənilən o məscid İran təbliğatı üçün tikilir, yoxsa məzhəb fərqi qoyulmadan Allah üçün, millət üçün tikilir?! Ola bilsin, Gürcüstan hökuməti özü də İran təbliğatının artmasından narahatdır. Ona görə də belə süni maneələr yaradılır. Yaxud əksinə, vəhhabi təmayüllü dini ibadətgahlar da birliyə, milli təfəkkürə zidd olur. Əgər söhbət yerli əhalinin yan təsirlər olmadan inşa etmək istədiyi məsciddən gedirsə, əlbəttə, buna qarşı maneə yaratmaq doğru deyil. Gürcüstan hökuməti Azərbaycan dövlətinin onlara etdiyi güzəştləri, yardımı, dostluğu unutmamalıdır".

# Kənd turizmini inkişaf etdirmək lazımdır

## Bunun üçün məmur sahibkarlığı ləğv olunmalı, inhisarçılıq aradan qaldırılmalı, gömrük rüsumları azaldılmalıdır



**Rayonda kirayə evlərin qiyməti bahalaşır.**

**Bu barədə əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirib. Onun sözlərinə görə, yaya doğru turizm potensialına malik rayonlarda kirayə mənzillərin qiymətinin qalxması qaçılmaz olacaq:**

"Hər il öncəki illə müqayisədə turizm bölgələrinə turist axını artır:

"Bəzi turistik rayonlarda otellərin sayı azdır. Belə hallar fərdi evlərin günlük kirayə qiymətlərinin artmasına səbəb olur. Yerli və xarici turistlərin ən çox üz tutduğu Qax, Qəbələ, Oğuz, İsmayıllı, Şamaxı, Quba-Xaçmaz və respublikanın cənub rayonlarıdır. Hazırda həmin rayonların kəndlərində kirayə verilən ikiotaqlı, orta şəraiti olan evin günlük qiyməti 40 manatdan başlayır. Yay aylarında isə bu qiymətlər bahalaşır. 50 manata ev tapmaq belə mümkün olmur. Həmin bölgələrdə elə evlər var ki, onların günlük qiyməti şəraitindən asılı olaraq 300 manatdan başlayır. Qiymətlərə təsir edən əsas amillərdən biri də həmin rayonların paytaxta nə qədər yaxın olmasıdır".

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, turizm mövsümi yaxınlaşdıqca bu sahədə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin biznesin canlanması ilə bağlı gözləntiləri də artır:**

"Amma müxtəlif spesifik problemlər də qalmaqdadır. Məsələlərdən biri ilk növbədə quru sərhədlərin açılmasıdır. Əngəl aradan qalxsa, turizmə çox müsbət effekt verər. Bundan başqa, rəqabətli mühitin yaradılması gərəklidir. Bu da daha çox istirahət mərkəzlərinin qiymətlərinin ucuzlaşmasına səbəb olan əsas amilə çevrilə bilər".

**İqtisadçı Nazim Bəydəmirli də qeyd edib ki, daxili turizmin inkişafı üçün təbii ki, əvvəlcə insanların maddi vəziyyəti normal olmalıdır:**

"Ənənəvi olaraq, Azərbaycan vətəndaşları bölgələrə həftə sonları səfər edərkən adətən bahalı qiymətlərdən şikayətlənirlər. Bunu yaradan köklü səbəblər var. Onlardan biri ölkə iqtisadiyyatında olan məmur sahibkarlarının yaratdığı inhisarçılıqdır. Onlar qarşılarına qazanc mənbəyi qoymadıqlarına görə daha çox yatırımlar ediblər, bahalı otellər tikiblər. Bu da bölgələrdə pul yığımı mexanizmi kimi istifadə edilib. Onları bazar araşdırması aparmaq maraqlandırmır. Belə biznes sahələri rəqabət mühitini formalaşdıra bilməzlər. Eyni zamanda təbii ki, hazırda Azərbaycanın quru sərhədləri açıq olmadığına görə, orta gəlirli şəxslər öz rayonlarımıza getməyə məcburdurlar. Çünki insanlar Rusiya-Ukrayna müharibəsi başlamamışdan qabaq, vaxtilə həm Ukraynaya, həm də Şimali Qafqaza çox axın edirdilər. Oralar orta səviyyəli məmurlarımızın sevimli yerləridir. Bildiyimiz kimi, əvvəllər Gürcüstan orta Azərbaycan statistik ailəsi üçün əlçatan idi. Vətəndaşlarımızın gəlirləri gündən-günə azalmaqda davam edir. Rayonlara gedənlər də əslində turizmə xərcləməyə pulu olmayanlardır və doğulduqları, qohum evlərinə üz tuturlar".

**N.Bəydəmirli əlavə edib ki, turizmin inkişafı üçün həmçinin xarici faktor önəmlidir:** "Sabitlik, sülh olmalı, əmin-amanlıq hökm sürməlidir. Uzun müddət Ermənistanın Azərbaycana münaqişəsi səbəbindən sərhəd bölgələrinə gedənlər az müşahidə edilirdi. Eyni zamanda xarici turistlər də ölkəmizə gəlmirdi. Qonşu Gürcüstanla müqayisə edilməz dərəcədə turizm Azərbaycanda inkişaf etmir. Hər Gürcüstan vətəndaşına 3-4 turist düşür. Bizdə isə bu rəqəmlər çox cüzidir. Onlar da ölkəmizdə "turist" adı ilə statistikaya salınan soydaşlarımızdır. Hansı ki, çalışdıqları Rusiya, Türkiyə, digər Avropa ölkələrinin vətəndaşlarıdırlar və öz ailələrinin yanına gəlirlər. Bu baxımdan da hansı tədbirlər görülməsi çox aydındır. Məmur sahibkarlığı ləğv olunmalı, inhisarçılıq aradan qaldırılmalı, icazələr, gömrük rüsumları azaldılmalıdır. Daha çox hostellərin tikilməsinə diqqət yetirmək, kənd turizmini inkişaf etdirmək üçün dövlət proqramı qəbul olunmalıdır. Problemləri həll etdikdən sonra həm quru sərhədlər açılacaq, həm də Qarabağa gediş-gəliş asanlaşdırılacaq. Bəhanələr aradan qaldırılacaq. Azərbaycan vətəndaşları öz ölkəsində rahat nəfəs alacaqlar".

**Sücayət Mehti**


**Bildiriş**

***Hörmətli Səhmdar!***

"Sumqayıt Aşqarlar" ASC-nin Rəhbərliyi Sizə bildirir ki, 30 iyun 2022-ci il tarixində, saat 11:00-da Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi ünvanında yerləşən "Sumqayıt Aşqarlar" ASC-nin inzibati binasında Cəmiyyətin Səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. Cəmiyyətin 2021-ci il üçün maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat;
2. "Sumqayıt Aşqarlar" ASC-nin Direktorlar Şurasına və təftiş komissiyasına üzvlərin seçilməsi və təsdiqi;
3. Cəmiyyətin əsas vəsaitlərinin (bina, qurğu, maşın və avadanlıqların) inventarlaşmasının aparılması və yeni balansın təsdiqi.

Yığıncaq iştirakçılarının qeydiyyatı saat 10:00-da başlanır. Yığıncaq saat 11:00-da başlanır. Qeydiyyat üçün pasport və ya şəxsiyyətinizi təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların növbəti ümumi yığıncağında şəxsən özünüz və ya notarius tərəfindən təsdiq edilmiş etibarnamə əsasında nümayəndəniz iştirak edə bilər. Növbəti ümumi yığıncağın gündəliyində duran məsələlər ilə əlaqədar Cəmiyyətin hüquqşünası N.İ.Behbudova müraciət edə bilərsiniz. Əlaqə telefonu: (051) 873-40-13

"Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları" ASC səhmdarlarının nəzərinə!

29 iyun 2022-ci il saat 15:00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyinə müzakirə üçün aşağıdakı məsələlər daxil edilir:

1. 2021-ci ildə Cəmiyyətin fəaliyyəti haqqında İdarə Heyətinin hesabatı;
2. Maliyyə-Təftiş Komissiyasının hesabatı;
3. Cəmiyyətin illik balansının və auditor hesabatının təsdiq edilməsi;
4. Cəmiyyətin İdarə Heyətinin və Maliyyə-Təftiş Komissiyasının tərkiblərinin seçilməsi;
5. Dividendlər haqqında;
6. Cari məsələlər.

Əlaqə telefonu: (012) 514-46-20. (055) 213-58-36
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 2.
"BYGEA" ASC-nin İdarə Heyəti.



**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**


# Türkiyədə sənədsiz yaşayan üçüncü nəsil azərbaycanlılar böyüyür

## Öləndə də kimsəsizlər məzarlığında üst-üstə basdırılırlar

**Türkiyədə yaşayan həmyerlimiz yazar Şəbnəm Bəkirzadə (Qarslı) qardaş ölkədə qaçaq yaşayan azərbaycanlıların problemindən yazıb.**

"92-də işləməyə gələn ailə, sənədlərinin vaxtı bitdikdən sonra qaçaq yaşamağa davam edirlər. Qızları sənədsiz olduğu üçün imam nikahı ilə ərə gedir, doğduğu uşaqların da sənədi yoxdur. İndi o uşaqlar da sənədsiz evlənir, uşaq dünyaya gətirirlər. Sənədsiz dördüncü nəsil... Öləndə də kimsəsizlər məzarlığında üst-üstə basdırılırlar. Yox olan insanlarımız. Bəlkə içlərində neçə-neçə istedadlar, elmə, texnologiyaya xidmət edəcək insanlar məhv olur. Bunun sonu olmalıdır, bu qədər olmaz artıq..."

**Bu məsələnin bir neçə illərdir aktual olaraq qaldığını vurğulayan miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənovun "Şərq"ə açıqlamasına görə, İstanbulda elə məhəllələr var ki, Türkiyədə qeyri-qanuni əsaslarla yaşayan həmyerlilərimiz orada kompakt şəkildə məskunlaşıb. Məhz bu məhəllələrdə artıq sənədsiz yaşayan ikinci, üçüncü nəsil böyüyür:** "Qaçaq yaşadıqları üçün uşaqları təhsil ala bilmir, özləri qeyri-qanuni əmək fəaliyyəti ilə məşğul olurlar və ən əsası Türkiyə cəmiyyətinə inteqrasiyadan məhrum qalırlar. Əslində Türkiyə hökumətinin ərazisində qeyri-qanuni şərtlərlə yaşayan şəxslərə qarşı daha sərt cəza tədbirlərinin həyata keçirilməsi gözlənilən haldır. Amma görünür, qardaş ölkə azərbaycanlı miqrantlara qarşı nisbətən loyal münasibət sərgiləyir. Bizim üçün hardasa bu, təqdirəlayiq hal kimi dəyərləndirilə bilər. Amma orada sənədsiz yaşayan şəxslər və Türkiyə hökuməti üçün bu, başağrısı yaradan bir məsələdir. Türkiyədə qeydiyyata düşməyən azərbaycanlıların hüquq və mənafelərini qorumaq mümkünsüz bir haldır".

*Ekspertin sözlərinə görə, bir neçə il əvvəl Türkiyədə sənədsiz yaşayan azərbaycanlıların problemləri ciddi müzakirə obyektinə çevrildi və həlli istiqamətində real addımlar atılmağa başlandı:* "O zamanlar 50 minə yaxın azərbaycanlının Türkiyədə qeyri-qanuni yaşadığını iddia edən hesabatlar yayılmışdı. Həmin vaxtlar bizim diplomatik qruplar azərbaycanlıların kompakt yaşadığı bölgələrə, məhəllələrə gedib həmyerlilərimizlə görüşüb onların maarifləndirilməsinə yönəlik tədbirlər keçirdilər. Amma son nəticədə məlum oldu ki, soydaşlarımız üçün Türkiyədə qaçaq yaşamaq daha rahatdır. Diplomatik nümayəndəliklərin səyinə rəğmən sənədsiz azərbaycanlılar öz statuslarını leqallaşdırmaq istəmədilər. Çünki bu zaman həmin şəxslərin dövlət qarşısında müəyyən öhdəlikləri yaranacaqdı. Onlar məhz bu məsuliyyətdən yayınmaq üçün qeyri-leqal həyat yaşamağa üstünlük verirlər. Hesab edirlər ki, sənədlərini qaydaya salıb qeydiyyata düşdükdən sonra onların Türkiyədə qarşılaşdıqları problemlər qeyri-leqal yaşadıqları zamanı üzləşdikləri problemlərdən daha çox olacaq. Əslində isə belə deyil".



***"Türkiyədə qeydiyyata düşməyən azərbaycanlıların hüquq və mənafelərini qorumaq mümkünsüz bir haldır"***

*A.Allahverənovun sözlərinə görə, aidiyyəti qurumlar, diaspora təşkilatları və Türkiyədə qeyri-qanuni əsaslarla yaşayan miqrantların statuslarının leqallaşdırılması ilə məşğul olan beynəlxalq təşkilatlar vahid platforma yaradaraq qeydiyyatsız yaşayan şəxslərin aşkar olunması və onların qeydiyyata alınması ilə bağlı tədbirlərin birgə keçirilməsinə nail olmalıdırlar. Bəzi stimullaşdırıcı amillərlə onları statuslarını leqallaşdırmaya razı salmaq olar.*

**Şəymən**

# "Bakcell"dən Azərbaycanda növbəti ilk




**Bakcell şirkəti Azərbaycanda ilk dəfə olaraq ən müasir səs texnologiyasını istifadəyə verib. Bu VoLTE (Voiceover LTE) texnologiyasıdır.**

VoLTEsmartfon istifadəçilərini daha sürətli, aydın və kəsintisiz səs xidmətləri ilə təmin edir.

Bu ən müasir səs texnologiyası Bakcell abunəçiləri üçün əlavə imkanlar da yaradır. Belə ki, bundan sonra eyni vaxtda həm telefonla danışmaq, həm də LTE şəbəkəsində internetdən tam şəkildə yararlanmaq mümkün olacaq. VoLTE texnologiyası smartfon batareyasının qənaətlə istifadəsinə də təsir göstərir.

"Bakcell"inVoLTE xidməti işğaldan azad olunmuş ərazilərimiz daxil olmaqla bütün ölkə ərazisində mövcuddur. Şuşada, Cıdır düzündə və Qarabağın digər ərazilərində quraşdırılmış yüksək keyfiyyətli LTE şəbəkəsi sayəsində Bakcell abunəçiləri bu xidmətdən istifadə edə biləcəklər.

Mobil telefonun VoLTE texnologiyasını dəstəkləməsini *303#YES kodunu yığmaqla yoxlamaq olar.

Ətraflı məlumat volte.bakcell.com səhifəsində yerləşdirilib.

2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 9 minə yaxın baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.6%-ni əhatə edir.

Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

# Azarkeşlərə müjdə

## Bakı bulvarı boyunca əyləncə zonaları olacaq



**2022 Formula 1 Azərbaycan Qran Prisinin keçiriləcəyi 10-12 iyun tarixlərində azarkeşlər Dənizkənarı Milli Parkı boyunca uzanan əyləncə zonalarını kəşf edəcəklər. Bu barədə Bakı Şəhər Halqasından məlumat verilib.**

Qeyd edilib ki, nəhayət, azarkeşlərin gözlədiyi avtoqraf sessiyaları və Pit zolağı gəzintisi onlara F1 super ulduzları və komandalarını yaxından görmək imkanı yaradacaq. 2016-cı il debütündən bəri dünya F1 azarkeşlərinin sevimlisinə çevrilən Bakı Şəhər Halqası F1 tarixində ən yadda qalan və dramatik yarışlara ev sahibliyi etməklə dünyanın aparıcı F1 pilotlarını sınaq qarşısında qoyur. Yarış bolidlərinin 366 km/saat sürətlə rekord həddə çatdığı, 2 km uzunluğunda düz yolu və UNESCO-nun mədəni irs nümunəsi İçəri Şəhər Qala divarları qarşısından keçərək dar yolları aşan, dolama döngələri ilə tanınan Bakı Şəhər Halqası qısa müddət ərzində bugünkü F1 təqvimində ən çətin treklərdən biri kimi öz yerini təsdiqlədi.

Bakı trekində heç bir pilot iki dəfə qalib gəlməmiş, son beş yarışda beş fərqli qalib müəyyən olunmuşdur.

Bu il də, ötən illərdə yaşanmış gözlənilməz anlar, rəqabət doğuran və saysız-hesabsız həyəcanlı hadisələr Bakı yarışında istisna olunmur. Təsadüfi deyil ki, 2021-ci ildə finiş xəttinə 3 dövrə qalmış Maks Ferstappenin qəzaya uğraması, Luis Hemiltonun restartda ona baha başa gələn səhvi Red Bull komandasının pilotu Serxio Peresin qələbəsinə təkan vermiş oldu. Bakı Şəhər Halqasının icraçı direktoru Arif Rəhimov çoxdandır gözlənilən F1-in Bakıya "tam" qayıtması barədə qeyd edir: "Bütün biletlərin alınacağına ümid edir, izdihamı qarşılamağa səbrsizlənirik. Beş yarışda beş fərqli qalibimizin olması çox gözəldir. Formula 1 azarkeşləri bu yarışı qaçırmamalıdır. Mövsümün ən gözlənilməz yarışı onu çox həyəcanlı edir! "Formula 1 yarışına əlavə olaraq, azarkeşlər Luis Hemilton, Şarl Lekler, Corc Rassel və Lando Norris kimi Formula 1 ulduzlarının bir çoxunu yetişdirən, olduqca populyar Formula 2 seriyasının geri dönüşündən də həzz ala bilərlər.

2022 Formula 1 Azərbaycan Qran Prisi Bakı küçələrində daha bir möhtəşəm rəqabətə hazırlaşır.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1329



## Yeni qanun layihəsi hazırlanıb

Azyaşlılar sosial medianın zərərlərindən qorunacaq

**İtaliyanın Ədliyyə Nazirliyi azyaşlı uşaqları sosial medianın zərərlərindən qorumaq üçün yeni qanun layihəsi hazırlayıb.**

Azərtac xəbər verir ki, qanun layihəsinə əsasən, uşaqların sosial media şəbəkələrinə daxil olması müəyyən qaydalar əsasında mümkün olacaq. Sosial media şəbəkələrində yeni hesab açarkən insanlardan daha ətraflı məlumat istəniləcək, həmçinin şəxsiyyət yoxlama sistemi tətbiq olunacaq.

İtaliya hökuməti bununla uşaqların erkən yaşda sosial şəbəkələrdən istifadəsinin qarşısını almağı nəzərdə tutur. Həmçinin yaşını az göstərərək hesab açanların və pis niyyətlə azyaşlılara təsir göstərmək istəyənlərin qarşısı alınacaq. Bu şəbəkələrdən pedofiliya üçün istifadə etməyə cəhd edənlərin də qarşısı alınacaq.

*Qeyd edək ki, son dövrlərdə İtaliyada sosial mediadan zərər görən azyaşlıların sayı artmaqdadır.*

## Su vedrəsinə düşüb boğuldu

Yaş yarımlıq körpəni xilas etmək mümkün olmayıb



**Türkiyənin Konya bölgəsində faciə yaşanıb.**

"Şərq" "Milliyet.com.tr"-yə istinadən xəbər verir ki, hadisə saat 10:30 radələrində Konyanın Karatay bölgəsi, Nakipoğlu Məhəlləsində baş verib. Məhəllədə yaşayan suriyalı köçkün ailənin yaş yarımlıq övladı Əbdülkərim Əl-Hac evdə oynayarkən ortalıqda qalmış su vedrəsinin içinə düşüb. Anası Rime Əl-Hac səs eşidib otağa gələndə kiçik oğlunu su vedrəsinin içində görüb. Uşağı vedrədən çıxarıb, lakin onun nəfəs almadığını fərq edib. Körpəni qucağına alaraq yaxınlıqdakı Karatay Gücləndirilmiş Köçkün Sağlıq Mərkəzinə aparıb. Lakin oradakı həkimlərin səyinə baxmayaraq uşağı həyata qaytarmaq mümkün olmayıb. Kiçik Əbdülkərimin cəsədi müayinə üçün Konya Şəhər Xəstəxanasına, ana isə ifadə vermək üçün polis şöbəsinə aparılıb.

**Məlahət**

## 45 yaşlı Gülşənin sirri

**"Acı bibərli limon suyu içirəm"**



**İdeal bədən quruluşuyla diqqət çəkən müğənni Gülşənin formada qalma sirri ortaya çıxıb.**

**Axşam.az-a istinadən xəbər verir ki, 45 yaşlı sənətçi sağlam qidalanır eyni zamanda idmanla məşğul olur.**

**O metobalizmanı sürətləndirmək üçün şəkərsiz fındıq südü və acı bibərlə limondan hazırlanan içki qəbul edir. Müğənni bu qarışımı həftənin 3 günü qəbul edir.**

## "İşığın sən olacağını heç bilmirdim"

Van Dammın oğlu azərbaycanlı həyat yoldaşından yazdı



**Hollivud ulduzu Jan Klod Van Dammın oğlu Kristofer Van Damm sosial şəbəkə hesabında yeni paylaşım edib.**

**Baku.ws xəbər verir ki, o, ötən il ailə həyatı qurduğu azərbaycanlı musiqiçi Suada Hacızadənin yeni fotosunu yayımlayıb.**

**Kristofer arvadının şəkilinə bu xoş sözləri də əlavə edib: "Bütün yaşadıqlarımdan sonra tunelin sonundakı işığın sən olacağını heç bilmirdim".**

***Qeyd edək ki, cütlük ötən il iyunun 17-də Azərbaycanın Türkiyədəki baş konsulluğunda doğmalarının iştirakı ilə baş tutan nikah mərasimində ailə həyatı qurub.***

## "Google" xəbərlər üçün saytlara pul ödəyəcək




**"Google" Almaniya, Fransa və Aİ-nin digər dörd ölkəsindəki 300-dən çox yayımçıya xəbərlərə görə ödənişlər etmək üçün müqavilələr imzalayıb.**

**Oxu.az xəbər verir ki, şirkətdən verilən məlumata görə, tezliklə xəbər saytlarına müvafiq prosedurları asanlaşdırmaq üçün alət təqdim ediləcək.**

**Qeyd edək ki, texnologiya nəhənginin ən sərt tənqidçiləri arasında olan xəbər yayımçıları uzun müddətdir ki, şirkətin ədalətli qiymət ödəməsini təmin etmək tələbilə öz hökumətlərinə çağırışlar edirlər.**

**Ötən il Avstraliya "Google" şirkətini belə ödənişlərə məcbur edib. Həmçinin Kanadada da keçən ay oxşar qanun qəbul olunub.**




# Velosipedlə 26 ölkəni gəzdilər

Yolu azan ailə Rusiyada həyatlarının şokunu yaşadılar

**Türkiyəli Soner və İnci Sarıhan cütlüyü kiçik oğulları Tibet Çinarla dünyanı gəzir. Həm də velosipedlə! Ailə bugünədək 26 ölkədə qonaq olub. Rusiyada isə başlarına qəribə hadisə gəlib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Sarıhan ailəsi şəhərdə yaşamağı "sürgün" hesab edənlərdəndir və təbiət qoynunda olmağı seçiblər.**

Sarıhan cütlüyü təbiətə, həmçinin ailə büdcələrinə də zərər verməmək üçün dünya turuna velosipedlə çıxmaq qərarına gəlib. 2005-ci ildə Aralıq dənizi sahillərinə, 2006-da Qara dəniz turuna çıxıblar. Beləcə gəzdikləri ölkələrin sayı da artmağa başlayıb. İran, Pakistan, Hindistanı gəzib, Avropaya üz tutublar: Almaniya, Niderland, Belçika, Fransa, İsveçrə, Avstriya, Çexiya, Slovakiya, Macarıstan, Xorvatiya, Bolqarıstan, Danimarka, İsveç, Finlandiya, Estoniya, Latviya, Litva, Polşa, İtaliya, İspaniya. Sarıhan ailəsinin İran və Pakistan səfərləri "Pedalımda 5 ölkə" adıyla yayımlanıb. Oğulları Tibet Çinar doğulduqdan sonra da cütlüyün dünya turu sevdası bitməyib, əksinə, kiçik oğullarını da yanlarına alaraq yollarına davam ediblər. Tibet Çinarın valideynlərindən ilk öyrəndiyi iş velosiped sürmək olsun gərək, çünki 3 yaşında velosiped sürməyə başlayıb. Bundan sonra ata-ana marşrutlarını oğullarının istəyilə təyin etməyə başlayıb. Sarıhan deyir ki, velosipedə hər yerdə xoş münasibət var: "Velosipedlə hərəkət etdiyimizə görə, bizi hər yerdə xoş qarşılayırlar. Velosipedli səyyaha hər kəs yardım edir. Evində qonaq saxlayır. Biz özümüz də Türkiyədəki mənzilimizdə indiyədək təqribən 100-ə yaxın velosipedçini qonaq etmişik. Sarıhan ailəsinin Rusiyada başına gələnlərsə çox ilgincdir. Ailə səyahət zamanı peyk naviqasiya sisteminin yardımından istifadə edir. Rusiya ərazisində olarkən naviqator qarşıda geniş bir ərazinin olduğunu göstərib. Sarıhan ailəsi bunu şəhər zənn edib. Düşünüblər ki, bu şəhərdə dincələ biləcəklər. Amma gözlənilməz halla qarşılaşıblar. Əraziyə yaxınlaşanda ətrafın tikanlı məftillərlə əhatələndiyini, əlində "Kalaşnikov" avtomatları tutmuş əsgərləri görüblər. Məlum olub ki, bura Sankt-Peterburqla Finlandiya sərhəddi arasında yerləşən Rusiya hərbi bazasıdır. Zabit bir qadın Sarıhan ailəsini bazanın ərazisinə dəvət edib. Sarıhan zabitə gecələmək üçün yer axtardıqlarını deyiblər, o da gecələmək üçün yaşlı bir qadının evini nişan verib. "Düşündük ki, səhər bazadan çıxmaq çətin olacaq, bizi yoxlayacaqlar. Amma belə olmadı, baryeri qaldırdılar və biz baza ərazisindən çıxdıq", söyləyən Sarıhan növbəti səyahətlərinin Böyük Britaniyanın bir ucundan digərinə uzanan, təxminən 2 min kilometr təşkil edən məşhur "Land's End to John o' Groats" marşrutu üzrə hərəkət etməkdir. Yer kürəsinin nə qədər böyük və geniş olduğunu ancaq bu yolla anlamaq mümkündür.





**Məlahət Rzayeva**



# Bakıya qaranquş və şanapipik gəlmir

Əsas səbəbi pandemiya zamanı aparılan dərmanlamalardır

**Son iki ildə Bakıya baharın müjdəçisi olan qaranquşlar gəlmir.**

Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Quru Onurğalıları Laboratoriyasının aparıcı elmi işçisi, biologiya üzrə elmlər doktoru Tahir Kərimov bildirib. Tahir Kərimov deyib ki, son iki ildə qaranquşların Bakı şəhərinə gəlməməsinin əsas səbəbi pandemiya zamanı aparılan dərmanlamalardır. Məsələ ondadır ki, qaranquşlar əsasən ağcaqanadlarla qidalanan quşlardır, son illərdə isə paytaxtda demək olar ağcaqanadlar tamamilə yoxa çıxıb: "Son iki ildə koronavirus pandemiyası ilə bağlı Bakıda mütəmadi olaraq dərmanlama işləri aparılıb. Buna görə də Bakıda demək olar ki, ağcaqanadların kökü kəsilib. Quşların yaşayışı üçün əsas faktorlar yem mənbəyidir, pandemiya dövrünə də dərmanlama işlərinin aparılması bu quşların dar qida arsenalını məhv etdi. Bu quşların qidalandığı ağcaqanadlar yoxdursa, deməli, o yerdə qaranquşlar da yoxdur".



Bioloq qaranquşların Bakıya gəlməməsinin digər səbəbinin isə iqlim dəyişikliyi ilə əlaqədar ola biləcəyini deyib: "Hazırda iqlim dəyişikliyi ilə bağlı bir çox quş növlərinin yaşayış arealı şimala çəkilib. Güclü istiləşmə səbəbindən Azərbaycanda da bir neçə quş növü itirilmək üzrədir".

Tahir Kərimov qeyd edib ki, pandemiya ilə bağlı aparılan dərmanlamaya görə qaranquşlarla yanaşı, şanapipiklər də Bakıya gəlmir.

AMEA üzvü onu da əlavə edib ki, Azərbaycanın digər şəhər və rayonlarında da qaranquşların sayı azalsa da, bu il hansı ərazilərə gəlib-gəlmədikləri ilə bağlı hələ ki, monitorinq aparılmayıb.

## Tərəvəz, paxla, çərəz, qoz, yağlı balıq

Depressiyada olan kişiləri bu dieta xilas edir



**Depressiyadan əziyyət çəkən insanlar çox zaman sağlam və düzgün qidalanmır. Ona görə də xəstəlik irəliləyir.**

Bakupost.az xəbər verir ki, Aralıq dənizi dietası depressiya ilə effektiv mübarizə aparır.

Sidney universitetinin alimləri depressiya xəstələri üzərində 12 həftəlik araşdırma aparıb.

18-25 yaşlı gənc 72 depressiya xəstəsi olan kişilər 12 həftə ərzində Aralıq dənizik dietası qidalanması çərçivəsində qidalanma rejiminə keçirilib.

Belə ki, onlara böyük porsiyalarda tərəvəz, paxla, çərəz, qoz, yağlı balıq, balıq yağı və tam taxıl, mayasız çörək verilib.

Digər kontrol qrup isə adi qaydada, özləri bildiyi kimi fast-food da daxil olmaqla qidalanıb.

Nəticədə Aralıq dənizi dietasında olan kişilərdə depressiya əlamətlərinin azalması, bəzisində itdiyi, yaxşı əhval simptomları müşahidə olunub.

"Yeməyin insanın əhvalına təsir etməsi barədə çox əsaslı sübutlar var. Məsələn, 90% serotonin hormonu bağırsaqlarda hasil olur. Ordakı mikrofloranı qidalandırmaq üçünsə onlara taxıl, lif, meyvə-tərəvəz lazımdır. Ona görə də belə tip dieta setoronin hasilini artırır. Depressiyadan əziyyət çəkən xəstələrin 30%-dən çoxu standart dərman müalicəsinə cavab vermir, heç bir yaxşılaşma olmur. Onların rasionu mütləq dəyişməlidir. Bu dietada depressiyada olan qadınlar, yaşlı insanlar üçün də keçərlidir".

## TikTok videosu ona baha başa gəlib

Selenanı Heylini parodiya etməkdə ittiham etdilər, üzr istədi



**Məşhur müğənni Selena Qomezin ötən gün paylaşdığı TikTok videosu ona baha başa gəlib.**

Axşam.az xəbər verir ki, izləyicilər ifaçını keçmiş sevgilisi Castin Biberin həyat yoldaşı, model Heyli Biberi parodiya etməkdə günahlandırılıb. Belə ki, onun Heyli kimi qaşlarını çatması, jestlər etməsi, göz süzməsi paridiya kimi qiymətləndirilib.

Bundan sonra Selena üzr istəyib və videonu siləcəyini bildirib: "Dəqiq nəyi səhv etdiyim barədə heç bir fikrim yoxdur, amma buna görə üzr istəyirəm. Pis niyyətim yox idi. Video tezliklə silinəcək".

*Qeyd edək ki, Castin Selena ilə ayrılıb Heyli ilə ailə qurduqdan sonra model dəfələrlə tənqidlərlə üzləşməli olub.*